

TuranBank

# İLLİK HESABAT

**2013**

# MÜNDƏRİCAT


4 STRATEJİ BAXIŞ, MİSSİYA VƏ DƏYƏRLƏR

6 BANK HAQQINDA ÜMUMİ MƏLUMAT

11 2013-CÜ İL ÜZRƏ ƏLAMƏTDAR HADİSƏLƏR

16 ÖN SÖZ

20 MAKROİQTİSADİYYAT

25 BANK SEKTORU

30 KREDİTLƏŞMƏ

35 MÜŞTƏRİ XİDMƏTLƏRİ

39 MARKETİNQ FƏALİYYƏTİ VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR

43 KORPORATİV İDARƏETMƏ VƏ SOSİAL MƏSULİYYƏT

47 RİSKLƏRİN İDARƏEDİLMƏSİ

51 ÇİRKLİ PULLARIN YUYULMASI VƏ TERRORİZMİN MALİYYƏLƏŞDİRİLMƏSİNƏ QARŞI GÖRÜLƏN TƏDBİRLƏR

53 İNFORMASİYA TEXNOLOGİYALARI

55 İNSAN RESURSLARI

57 BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

60 XƏZİNƏDARLIQ FƏALİYYƏTİ

61 AUDİTOR RƏYİ

Bankçılıq və sənətkarlığı birləşdirən ən əsas cəhətlərdən biri hər ikisinin özülünün peşəkarlıq üzərində qurulmasıdır. Uğurlu sənət əsərini yalnız peşəsində püxtələşmiş sənətkarların ərsəyə gətirdiyi kimi bank işində uğurlu nəticələrə də yalnız ən yüksək keyfiyyətlərə sahib bank mütəxəssisləri nail ola bilərlər. 2013-cü ilin yekunlarına həsr olunmuş bu illik hesabatda biz ötən yüzillərdən müasir günümüzə kimi gəlib-çatmış dəyərli sənət növlərindən olan misgərlik nümunələrini diqqətinizə təqdim etməyə çalışdıq. Şəfəq Qurbanovanın 30 il ərzində öz şəxsi kolleksiyasında bir araya gətirdiyi, çoxsaylı tədbirlərdə sərgilənmiş bir-birindən qiymətli bu möhtəşəm sənət əsərlərinin Sizi də bizim qədər həyəcanlandıracağına əminik.



**Gülabdan**
Azərbaycan, Melxior, 20-ci əsrin əvvəli

# STRATEJİ BAXIŞ, MİSSİYA Və DƏYƏRLƏR

## Strateji Baxışımız

TuranBankı respublikanın bütün regional mərkəzlərində satış şəbəkəsi vasitəsi ilə bütün respublika üzrə əhali, mikro, kiçik və orta sahibkarlığa xidmət göstərən, xarici investisiyalı pərakəndəyönümlü universal bank etmək.

## Missiyamız

TuranBank inkişaf edən peşəkar komandası ilə müştərilərinə beynəlxalq standartlara uyğun yüksək keyfiyyətli xidmət göstərən, cəmiyyətin sosial həyatında aktiv iştirak edən, investorlarının investisiyalarının dəyərinin artımını təmin edən etibarlı və şəffaf bankdır.

### 1 İnvestorlara münasibətdə

Bank, növbəti strateji dövrün sonuna əldə edilən mənfəətin bir hissəsini reinvestisiya edəcəkdir. Bundan əlavə, Bank həm bazar payının, həm aktivlərinin keyfiyyətinin, həm də biznes fəlsəfəsinin reallaşması nəticəsində imicinin artması hesabına səhmlərinin real dəyərinin davamlı artmasına nail olacaqdır. Bu mövcud səhmdarların Banka investisiyalarının artırılmasını stimullaşdırmaqla yanaşı, Bankı digər investorlar üçün cəlbedici edəcəkdir.

## 2 İşçiyə münasibətdə

Bank, növbəti strateji dövrdə də işçi heyətini daima diqqətdə saxlayacaq, onlara daimi və məqsədli investisiyalar qoyacaq, öz potensiallarının reallaşması üçün yuxarıdan aşağı səlahiyyət bölgüsünü təkmilləşdirəcək və nəticəyə əsaslanan motivasiya sistemlərinin tətbiqini davam edəcəkdir.

## 3 Müştəriyə münasibətdə

Bank, növbəti strateji dövrdə informasiya texnologiyalarına qoyulan investisiyaların nəticəsi olaraq, müştərilərinə daha operativ xidmət göstərəcək, onlara banka gəlmədən belə müxtəlif çeşidli bank məhsul və xidmətlərini rəqiblərindən daha sərfəli şərtlərlə təklif edəcəkdir.

# Dəyərlərimiz

- Etibarlılıq
- Şəffaflıq
- Müştəri ilə tərəfdaş olmaq
- İşçiyə ən qiymətli kapital kimi dəyər vermək
- Cəmiyyət qarşısında korporativ sosial məsuliyyət
- Azərbaycan iqtisadiyyatına xidmət
- Ölkə qanunlarına riayət və hörmət



**Dolça**
Azərbaycan, Mis, 19-cu əsr

# BANK HAQQINDA ÜMUMİ MƏLUMAT



**Bankın tam adı:** TuranBank Açıq Səhmdar Cəmiyyəti
**Bankın qısa adı:** TuranBank ASC
**Yaranma tarixi:** 12 İyun 1992
**Hüquqi ünvanı:** AZ1073, İsmayıl bəy Qutqaşınlı küç., 85, Bakı şəh., Azərbaycan Respublikası
**Kod:** 507462
**VÖEN:** 1300016391
**Azərbaycan Mərkəzi Bankında**
**müxbir hesab:** AZ26NABZ01350100000000027944
**SWIFT:** TURAAZ22
**Teleks:** 14326 TURAN AI
**Call Centre:** +994 (12) 935
**Telefonlar:** +994 (12) 510 79 11, 510 79 22
**Faks:** +994 (12) 497 25 77
**E-mail:** office@turanbank.az
**Veb:** www.turanbank.az
**Facebook:** www.facebook.com/turanbankasc

Çaydan
Azərbaycan, Mis, 19-cu əsrin əvvəli

# LİSENZİYA

TuranBank Azərbaycan Respublikası Milli Bankı tərəfindən verilmiş (hazırkı Mərkəzi Bank) 30.12.1992-ci tarixli 115 №-li lisenziya və bankın təşkilati hüquqi formasının dəyişməsi ilə əlaqədar 23.03.2005-ci il tarixdə yenilənmiş 115 №-li lisenziya əsasında fəaliyyət göstərir.

## PEŞƏKAR ASSOSİASİYALARDA, BİRLİKLƏRDƏ, BİRJALARDA VƏ ÖDƏNİŞ SİSTEMLƏRİNDƏ ÜZVLÜK

- Azərbaycan Banklar Assosiasiyası (ABA)
- Azərbaycan Mikro-Maliyyə Assosiasiyası (AMA)
- Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO)
- Azərbaycan Risk Peşəkarları Assosiasiyası (ARPA)
- Alman-Azərbaycan İqtisadi Birliyi (DAWF)
- Amerika–Azərbaycan Ticarət Palatası (AMCHAM)
- Beynəlxalq Banklararası Maliyyə Telekomunikasiya Birliyi (SWIFT)
- Bakı Banklararası Valyuta Birjası (BBVB)
- SAXO Bank – ticarət platforması
- MasterCard Beynəlxalq Ödəniş sistemi
- Western Union Beynəlxalq Ödəniş sistemi
- Contact Beynəlxalq Ödəniş sistemi
- Lider Beynəlxalq Ödəniş sistemi
- PrivatMoney Beynəlxalq Ödəniş sistemi
- Zolotaya Korona MDB ölkələri üzrə ödəniş sistemi
- Blizko MDB ölkələri üzrə ödəniş sistemi
- IBA-Express MDB ölkələri üzrə ödəniş sistemi
- Monex respublikadaxili köçürmə sistemi

## 2013-cü ilin sonuna Əsas Göstəricilər

mln AZN

| Göstəricilər | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|
| Aktivlər | 106.1 | 125.2 | 165.8 | 217.1 | 244.3 |
| Kredit Portfeli | 76.5 | 100.4 | 117 | 161.3 | 177.6 |
| Əmanət Portfeli | 44.8 | 54.5 | 86.7 | 102.8 | 108.2 |
| Müddətli əmanətlər | 20.7 | 33.1 | 41.8 | 49.7 | 76 |
| Məcmu kapital | 20.9 | 21.8 | 23.9 | 31.9 | 50.5 |
| Səhmdar Kapitalı | 17 | 20 | 22 | 30 | 44 |
| Gəlir | 12.1 | 15.5 | 18.7 | 23.3 | 27.9 |
| Xərc | 10 | 14.2 | 14.9 | 19.3 | 23.1 |
| Mənfəət | 2.1 | 1.3 | 3.8 | 4 | 4.8 |

## Səhmdarlarımız

| Göstəricilər | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|
| Səhmdarların ümumi sayı, | 25 | 25 | 26 | 27 | 28 |
| o cümlədən: | | | | | |
| hüquqi şəxslər | 5 | 5 | 5 | 5 | 6 |
| fiziki şəxslər, | 20 | 20 | 21 | 22 | 22 |
| o cümlədən: | | | | | |
| bankın işçiləri | 5 | 5 | 5 | 5 | 4 |
| Səhmdarların nizamnamə kapitalında payı (%), | | | | | |
| o cümlədən: | | | | | |
| hüquqi şəxslər | 21.8 | 21.51 | 21.54 | 19.41 | 29.11 |
| fiziki şəxslər, | 78.2 | 78.49 | 78.46 | 80.59 | 70.89 |
| o cümlədən: | | | | | |
| bankın işçiləri | 27.58 | 28.11 | 22.39 | 21.95 | 17.98 |
| **Səhmdarlarımıza ödədiyimiz dividend** | 18% | 17% | 15% | 12.3% | 11% |

# İşçilərimiz

| Göstəricilər | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|
| İşçilərimizin ümumi sayı, | 205 | 237 | 274 | 327 | 372 |
| o cümlədən: | | | | | |
| baş ofis | 76 | 88 | 100 | 112 | 129 |
| filial və nümayəndələr | 103 | 120 | 143 | 189 | 204 |
| mübadilə şöbələri | 26 | 29 | 31 | 36 | 34 |

# Xidmət Şəbəkəmiz

| Göstəricilər | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|
| Filialların sayı, | 11 | 11 | 12 | 12 | 12 |
| o cümlədən: | | | | | |
| Bakı şəhərində | 6 | 6 | 6 | 6 | 6 |
| regionlarda | 5 | 5 | 6 | 6 | 6 |
| Şöbələrin sayı, | | | | | |
| o cümlədən: | | | | | |
| Bakı şəhərində | | | | 1 | 1 |
| regionlarda | | | | 1 | 1 |
| Mübadilə şöbələrinin sayı, | 21 | 20 | 20 | 20 | 19 |
| o cümlədən: | | | | | |
| Bakı şəhərində | 19 | 19 | 19 | 19 | 18 |
| regionlarda | 2 | 1 | 1 | 1 | 1 |

| | | | | | |
|---|---|---|---|---|---|
| Bankomatların sayı,<br>o cümlədən:<br>Bakı şəhərində<br>regionlarda | 9<br><br>7<br>2 | 13<br><br>10<br>3 | 19<br><br>12<br>7 | 20<br><br>12<br>8 | 21<br><br>13<br>8 |
| POS-terminalların sayı,<br>o cümlədən:<br>Bakı şəhərində<br>regionlarda | 73<br><br>67<br>6 | 74<br><br>68<br>6 | 60<br><br>54<br>6 | 262<br><br>232<br>30 | 210<br><br>186<br>24 |
| Törəmə qurumlarımız | 1 | 1 | 1 | 1 | 1 |
| Nümayəndələrimiz | 8 | 8 | 8 | 6 | 6 |

## Kapital İnvestisiyalarımız

Səhmdar payı

| Qurumun adı | 2009 | 2010 | 2011 | 2012 | 2013 |
|---|---|---|---|---|---|
| Azər-TürkBank ASC | 4% | 4% | 4% | 4% | 4% |
| Başak İnam Sığorta Şirkəti | 15% | 10.77% | 8.33% | 8.33% | 8.33% |
| Milli Kart MMC Prossesinq Mərkəzi | 3% | 2.4% | 2.4% | 2.4% | 2.4% |
| TuranLizinq MMC | 100% | 100% | 100% | 100% | 100% |

**Beynəlxalq Auditorlarımız:** PriceWaterHouseCoopers, Deloitte & Touche və KPMG

# 2013-CÜ İL ÜZRƏ ƏLAMƏTDAR HADİSƏLƏR

- Bank 2012-2015-ci illər üzrə hazırlanmış Strateji Planı yeniləmişdir;
- Bank Beynəlxalq Maliyyə Korporasiyası (BMK) ilə Kiçik və Orta Sahibkarlıq (KOS) Bankçılığı layihəsi üzrə əməkdaşlığını davam etdirmişdir;
- Bank USAID-lə (ABŞ Beynəlxalq İnkişaf Agentliyi) "Azərbaycanda Rəqabət qabiliyyətliliyi və Ticarətin inkişafı" layihəsi üzrə əməkdaşlığını davam etdirmişdir;
- Bank 21 illik fəaliyyətini qeyd etmişdir;
- Bank ICD-dən (Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası) KOS maliyyələşdirilməsi istiqamətində 5 il müddətinə 5 mln. ABŞ dolları məbləğində vəsaitin cəlb edilməsi üzrə ilkin razılıq əldə etmişdir;
- Bank Societe-Generale Bankı ilə 1 mln. ABŞ dolları məbləğində vəsaitin cəlb edilməsi üzrə müqavilə imzalamışdır;
- Bank WBC/OPIC təşkilatından KOS maliyyələşdirilməsi istiqamətində 7 il müddətinə 7 mln. ABŞ dolları məbləğində vəsaitin cəlb olunması üzrə memorandum imzalamışdır;
- Bank ECO Ticarət və İnkişaf Bankı ilə KOS maliyyələşdirilməsi istiqamətində 3 mln. ABŞ dolları məbləğində vəsaitin cəlb olunması istiqamətində ilkin razılıq əldə etmişdir;
- Bank BMK ilə Ticarətin maliyyələşdirilməsi istiqamətində texniki dəstək layihəsi üzrə müqavilə imzalamışdır;
- Bank məcmu kapitalını Mərkəzi Bankın müvafiq tələbinə uyğun 50,5 mln. AZN-ə çatdırmışdır;
- Bankın səhmdarları sırasına ABŞ-da idarə olunan ShoreCap II Ltd. Fondu qatılmışdır;
- Bankın Müşahidə Şurasının tərkibinə müstəqil üzv kimi Gunter Eckel seçilmişdir;
- Bank istehlak kreditləri üzrə müştərilərə yeni "Muştuluq" adlı 9%-lik endirim aksiyası təqdim etmişdir;
- Bank vebsaytlar üzərindən on-line kredit ödənişlərinin qəbulu sistemini tətbiq etmişdir;



**Aftafa-ləyən**
Azərbaycan, Mis, 19-cu əsrin əvvəlləri

- Bank müştərilərə rəqabətqabiliyyətli yeni mikrokredit və qrup kreditləri məhsullarını təqdim etmişdir;
- Bank müştərilərə yeni "Çətir" əmanətini təqdim etmişdir;
- Bank Facebook sosial şəbəkəsində "Dostunu gətir!" aksiyasını keçirmişdir;
- Bank Lider sürətli pul köçürmə sisteminə qoşulmuşdur;
- Bankın Sahil filialı yeni ünvanda fəaliyyətə başlamışdır;
- Bank 2013-cü maliyyə ilinin beynəlxalq kənar audit hesabatının hazırlanması üzrə KPMG ilə saziş imzalamışdır;
- Bank Korporativ Sosial Məsuliyyət siyasəti çərçivəsində aşağıdakı tədbirləri həyata keçirmişdir:

- Azərbaycan Risk Peşəkarları Assosiasiyasının (ARPA) təşkilatçılığı ilə tələbələrin inkişafı və təhsilinə istiqamətlənmiş Tələbə Proqamı layihəsinə əsas sponsorluq;
- Xaricdə təhsil alan gənclər üçün əmək yarmarkasında iştirak;
- Azərbaycan Dövlət İqtisad Universitetində keçirilən Məzun-2013 əmək yarmarkasında iştirak;
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Bakı şəhəri Məşğulluq İdarəsi və Memarlıq və İnşaat Universiteti Karyera Planlama Mərkəzinin keçridiyi əmək yarmarkasında iştirak;
- Ümummilli Lider Heydər Əliyevin 90 illik Yubileyinə həsr olunmuş Qazax şəhərində keçirilən yeniyetmələrarası regional güləş turnirinə sponsorluq;
- 2012-ci ildə qəbul imtahanlarında ali təhsil müəssisələrinə yüksək bal toplamış və prezident təqaüdünə layiq görülmüş tələbələrlə görüş və hədiyyələrin təqdimatı;
- Bankın işçi heyətinin Xalq yazıçısı Çingiz Abdullayevlə görüşü;
- "1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü" münasibətilə uşaq evinin ziyarəti və uşaqların kukla teatrına səfərinin təşkili;
- Fevral - mart aylarında Bakı Banklararası Valyuta Birjasının təşkil etdiyi banklararası futzal turnirində iştirak;
- Məktəblilər arasında 20 noyabr – Ümumdünya Üşaq Gününə həsr olunmuş rəsm müsabiqəsinin keçirilməsi;
- 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə keçirilən futzal turnirində iştirak;
- Dövlət İqtisad Universitetində "Bankda Risklər" və "Risklərin İdarəedilməsi" mövzularında seminarın təşkili;



**Dolça**
Azərbaycan, Mis, 19-cu əsrin sonu

# Müşahidə Şurası



Müşahidə şurasının üzvü
**Akif Kərimov**



Müşahidə şurasının üzvü
**Gunter Eckel**



Müşahidə şurasının sədri
**Fuad Musayev**



Müşahidə şurasının üzvü
**Rauf Kazımov**



Müşahidə şurasının üzvü
**Ramiz Qasımov**

# Audit Komitəsi



Audit Komitəsinin sədri
**Çingiz Ağayev**



Audit Komitəsinin üzvü
**Famil Nəbiyev**



Audit Komitəsinin üzvü
**Davud Quliyev**

# İdarə Heyəti



İdarə Heyətinin sədr müavini
**Fəzail Musayev**



İdarə Heyətinin üzvü
**Kəmalə Mustafayeva**



İdarə Heyətinin sədri
**Nazim Sadıqov**



İdarə Heyətinin sədr müavini
**Məhəmməd Kələşov**



İdarə Heyətinin üzvü
**Orxan Qarayev**

# ÖN SÖZ

## Hörmətli Xanımlar və Cənablar!

Sizi TuranBankın adından salamlayır və Müşahidə Şurası sədri qismində məmnunluq hissi ilə Bankımızın 2013-cü il ərzində fəaliyyətini özündə əks etdirən İllik Hesabatını diqqətinizə çatdırıram. Ötən il Bankımız üçün inkişaf və yeni nailiyyətlər ili olmuşdur. Müştərilərin sayının nəzərəçarpacaq artımı, müştərilərə təqdim olunan məhsulların çeşid və keyfiyyətinin, onlara göstərilən xidmət səviyyəsinin artımı kimi uğurlar, Bankın peşəkar əməkdaşlarının fəaliyyətinin nəticəsidir.

Artıq 21 illiyini qeyd edən TuranBank, 2012-2015-ci illər üçün yenilənmiş inkişaf strategiyasını uğurla həyata keçirməkdə davam etmişdir. Bu gün mən əminliklə deyə bilərəm ki, Bank tərəfindən hazırlanmış strategiya öz effektivliyini göstərməkdədir. Məhz bunun nəticəsində Bank 2013-cü ildə bir sıra uğurlu nailiyyətlərə imza atmışdır. Bu nailiyyətlər sırasında Bankın "institusional baza"sının beynəlxalq təcrübəyə müvafiq formalaşdırılması, satış şəbəkələrinin səmərəliliyinin yüksəldilməsi və kapitalın artırılması ilə yanaşı, aktivlərin keyfiyyətinin yüksəldilməsi, xarici investorların Bankın kapitalına cəlbi və s. kimi uğurları göstərmək olar.

Ümummilli Lider Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən, ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən müasir dövlət, güclü iqtisadiyyat, yüksək sosial rifah qurulması istiqamətində ölkədə həyata keçirilən müasir inkişaf konsepsiyası bu hədəflərə çatmaq üçün yüksək rəqabət qabiliyyətli və şaxələnmiş iqtisadiyyatın qurulmasını nəzərdə tutur. Bu məqsədə xidmət edən və son on il ərzində ölkədə iki mərhələdə həyata keçirilən regionların sosial-iqtisadi inkişafı dövlət proqramının icrası nəticəsində ölkə iqtisadiyyatının sənaye, infrastruktur, informasiya-kommunikasiya texnologiyaları, kənd təsərrüfatı, bankçılıq, sosial inkişaf, turizm, ekologiya, sahibkarlıq və digər sahələrinin çoxşaxəli sabit inkişafının təmin edilməsi istiqamətində əhəmiyyətli nəticələr əldə edilmişdir. Belə ki, dövlət proqramının həyata keçirildiyi son 10 il ərzində ümumi daxili məhsul 3,4 dəfə, qeyri-neft sektoru 2,6 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə artmış, yoxsulluğun səviyyəsi 8,4 dəfə azalaraq 5,3%-ə, işsizlik səviyyəsi 1,9 dəfə azalaraq 5%-ə enmiş, regionlarda 56 minə yaxın müəssisə fəaliyyətə başlamış və 1,2 milyondan çox yeni iş yeri yaradılmışdır ki, bunun da 900 mini daimi iş yerləridir.

İqtisadiyyatın şaxələnməsi üçün ən ümdə şərtlərdən biri də ölkənin qeyri-neft sektorunun inkişafıdır. Prezident İlham Əliyevin yerli bankların iqtisadiyyatın real sektoruna daha çox vəsait ayırmaları haqqında tövsiyələrini əsas tutan Bankımız, ildən-ilə sahibkarların kreditləşdirilməsi həcmlərini ciddi surətdə artırmaqdadır. Ötən 2013-cü ildə də TuranBank ölkə iqtisadiyyatının inkişafına öz dəstəyini davam etdirmişdir. Kiçik və orta sahibkarlıq subyektlərinin lazımi maliyyə vəsaitləri ilə təmin edilməsi üçün Bank yerli qurumlardan Sahibkarlığa Kömək Milli Fondu, Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi, beynəlxalq maliyyə qurumlarından isə ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID), Dünya Bankı qrupu (World Bank Group), o cümlədən Beynəlxalq Maliyyə Korporasiyası (IFC), Beynəlxalq İnkişaf Assosiasiyası (IDA), eyni

zamanda Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond (IFAD), İslam İnkişaf Bankı qrupu, o cümlədən Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası (ICD), Beynəlxalq Ticarətin Maliyyələşdirilməsi üzrə İslam Korporasiyası (ITFC), Qara Dəniz Ticarət və İnkişaf Bankı (BSTDB), WorldBusinessCapital/OPIC, Bank im Bistum Essen, Societte Generale, BCP, ZiraatBank, BankAsya ilə birgə layihələr həyata keçirməklə ölkə üçün önəmli olan qeyri-neft sektorunun inkişafına öz töhfəsini verməkdədir.

Respublikanın əksər regional mərkəzlərində satış şəbəkəsinə malik olan Bankımız hesabat dövründə də əhaliyə, mikro, kiçik və orta sahibkarlığa dəstək göstərməklə regionların sosial-iqtisadi inkişafına təkan verən layihələr həyata keçirməkdə davam etmişdir. Bankın IFC, ICD, WBC/OPIC, BSTDB, ECO Ticarət və İnkişaf Bankı ilə Kiçik və Orta Sahibkarlıq (KOS) layihəsi üzrə 2014-cü ildə nəzərdə tutulan birgə əməkdaşlığını qeyri-neft sektorunun davamlı inkişafına ciddi dəstək kimi qiymətləndirmək olar. Adları çəkilən xarici institutların TuranBank vasitəsilə Azərbaycanın iqtisadiyyatına maliyyə resursları ayırmaları, onların Bankımızla uzunmüddətli, uğurlu və faydalı əməkdaşlığı sayəsində formalaşan etimad sayəsində mümkün olmuşdur.

2013-cü ildə Bankın 2012-2015-ci illər üzrə Strateji Planının əsas hədəflərindən biri Banka xarici investisiya kapitalının cəlb olunması həyata keçirilmişdir. TuranBankın səhmlərinin 3028 ədədini əldə edən ABŞ-da idarə olunan ShoreCap II Ltd. Fondu 7,45% payla Bankın səhmdarları sırasına qatılmışdır. Yeni səhmdarımızın əsas fəaliyyəti Asiya və Afrika qitələrinin inkişaf etməkdə olan ölkələrində fəaliyyət göstərən banklara, mikro maliyyə institutlarına və qeyri-bank maliyyə təşkilatlarına investisiya qoyuluşlarıdır. Bu faktın özü TuranBankın xarici tərəfdaşları arasında gündən günə artan nüfuz və etibarının bariz göstəricisidir. Bunun nəticəsidir ki, Bank ötən il nizamnamə kapitalını artırmaqla Azərbaycan Respublikası Mərkəzi Bankının fəaliyyətdə olan bankların məcmu kapitalının 50 mln. manata çatdırılması haqda tələbini vaxtından əvvəl icra etmiş və ilin sonuna öz məcmu kapitalını 50,5 mln. manata çatdırmışdır.

Hesabat dövründə Bank, korporativ idarəetmə üzrə tətbiq etdiyi qabaqcıl təcrübəni mütəmadi olaraq təkmilləşdirmiş və beynəlxalq təcrübəyə uyğun səviyyədə saxlamışdır. Fəxr hissi ilə bildirmək istəyirəm ki, bu istiqamətli səylərimiz və tətbiq edilməkdə olan idarəetmə mexanizmlərimiz yüksək qiymətləndirilmiş və 29 yanvar 2013-cü il tarixdə Azərbaycan Mikromaliyyə Assosiasiyasının təşkil etdiyi VI İllik Təltif mərasimində TuranBank "Effektiv Korporativ İdarəetmə" nominasiyasının qalibi seçilmişdir.

Bankın götürdüyü strateji kursu ətraf mühit dəyişkənliyinin təsirlərinə müvafiq tənzimləmək məqsədilə Bank, hesabat ilində qəbul etdiyi 2012-2015-ci illər üzrə Strateji Planına bir sıra korrektələr etmişdir. Belə ki, Mərkəzi Bankın məcmu kapitala olan tələbinin dəyişməsinə müvafiq olaraq Strateji Planın rəqəmsal hissəsi yenilənmiş, satış işinin təşkilati strukturda ayrıca bloka ayrılaraq ixtisaslaşdırılması təmin edilmiş və bu sahənin gələcək illərdə daha prioritet hesab edilməsi əsas vəzifə kimi qəbul edilmiş, Bankın hədəf qrupu daha aydın açıqlanmış, informasiya texnologiyalarına xüsusi önəm, eləcə də əsaslı investisiyaların yatırılması, xüsusilə də məsafədən Bank xidmətlərinin göstərilməsi əsas hədəflərdən biri kimi müəyyənləşdirilmiş və Yaşıl Bank konsepsiyasına uyğun tədbirlər planı hazırlanmışdır.

Bankımız ötən il özünün bütün satış nöqtələrində müştərilərə göstərilən

bank xidmətlərinin daha da müasirləşdirilməsi, elektronlaşdırılması və optimallaşdırılması, həmçinin ümumilikdə mövcud satış şəbəkəsinin səmərəliliyinin artırılması istiqamətində zəruri tədbirləri həyata keçirməkdə davam etmişdir. Həmçinin, bankçılıq fəaliyyətində satış səmərəliliyinin artırılması istiqamətində məsafədən xidmət göstərilməsi, eləcə də çoxkanallı marketinq tədbirləri aktuallaşan mövzulardan hesab olunur. Hesabat ilində bu istiqamətlər üzrə istər veb-səhifə və sosial şəbəkələr üzərindən əhali ilə komunikasiya, istərsə də marketinq-yönümlü bir sıra əlamətdar layihələr həyata keçirmişdir ki, bu da Bankımızın kəmiyyət və keyfiyyət qiymətləndirilməsində öz əksini tapmışdır

Bankın inkişaf strategiyasının digər vacib elementi müştərilərə, onların ehtiyac və istəklərinə diqqətin daim artırılmasıdır. Biz əminik ki, məhz müştərilərin məmnunluğu, onların tələbatlarının vaxtlı-vaxtında və tam ödənilməsi Bankımızın davamlı inkişafının əsasını təşkil edir. Müştərilərə göstərilən xidmət keyfiyyətinin, onlara təqdim olunan məhsulların çeşidinin və səmərəliliyinin artırılması məqsədilə Bank, hesabat dövründə filiallarda keçirilən müştəri günləri, "Şikayət və Təklif" qutuları vasitəsilə müştərilərin xidmət və məhsullar haqqında fikir və təkliflərin öyrənilməsi kimi tədbirləri həyata keçirmişdir. Sadalanan vasitələrlə yanaşı Bank, artıq mövcud olan Call-Centre, onlayn konsultasiya, sosial şəbəkələrdəki səhifələri kimi kanallarla birgə, əməkdaşlarımızın daima müştərilərimizlə yaxından ünsiyyət qurmalarına, onların irad və təkliflərini vaxtında dinləmələrinə, həmçinin onları keyfiyyətli maliyyə məsləhəti xidməti ilə təmin etmələrinə şərait yaratmışdır. Bankın müştərilərin marağını nəzərə alaraq tətbiq etdiyi sadalanan bütün yenilikləri və layihələri Bank müştərilərinin istəklərinin vaxtında müəyyən edilib yerinə yetirilməsi və beləliklə, onların etibarının qazanılması məqsədilə həyata keçirilmişdir.

Fəaliyyətinin əsas hədəfi müştəri məmnunluğu olan TuranBank, ötən il həyata keçirdiyi tədbirlər sırasında müasir texnologiyaların tətbiqi hesabına müştərilərin Bankın məhsul və xidmətlərindən istifadə edərkən vaxtlarına maksimum dərəcədə qənaət etmələrinə imkan verən layihələrin icrasını əyani sübut kimi göstərmək olar. Belə ki, hazırda Bankın kredit və kart məhsullarını sifariş vermək və mövcud kredit ödənişlərini həyata keçirmək üçün müştərilərin artıq Banka gəlmələrinə ehtiyac qalmamışdır. Bu əməliyyatları onlar istədikləri yerdən Bankın saytı və "hesab.az" ödəniş portalı vasitəsilə də həyata keçirə bilirlər.

Bankın Hesabat dövrü ərzində müştərilərin maraqları istiqamətində həyata keçirdiyi layihələr məhsuldar nəticələr vermişdir. Belə ki, 2013-cü ildə Bankın istər pərakəndə, istərsə də korporativ müştərilərinin sayı nəzərəçarpacaq dərəcədə artmışdır. Ötən il müştərilərin sayının 48 minədək artması Bankın ən ciddi nailiyyətlərindən biri hesab olunur. Hesabat ili üzrə Bankın əsas maliyyə göstəricilərinin dinmaik artım tempi üzrə inikişafı 2013-cü il üzrə səmərli fəaliyyətin nəticəsidir. Belə ki, hesabat ilində Bankın aktivləri ötən illə müqayisədə 12,6% artaraq 244,3 mln. manat, kredit portfeli 10,1% artaraq 177,6 mln. manat, müştərilər üzrə depozit portfeli 5,3% artaraq 108,2 mln. manat təşkil etmişdir. Hesabat ilində Bankın mənfəət göstəricisi əvvəlki illə müqayisədə 19,1% artaraq 4,8 mln. manata çatmışdır. Bu göstərici üzrə Bankın pozitiv mövqe tutması, Bankın səhmdarlarının onun səhmlərinə olan marağını artırmışdır ki, bu da öz əksini 2013-cü il üzrə kapitallaşma prosesində tapmışdır.

Bankın inkişaf strategiyasının əsas elementlərindən biri də insan kapitalı olan Bank əməkdaşlarına investisiya qoyuluşlarıdır. Ötən il bu istiqamətdə ciddi addımlar atılmışdır. Bankın komandasına yeni yüksək

ixtisaslı mütəxəssislər cəlb olunmuş, mövcud əməkdaşların bir çoxu peşəkarlıq səviyyələrinin artırılması məqsədilə daxili və xarici treninq və təlimlərə qatılmış, işçilərin yeni motivasiya sistemi və karyera modeli üzərində işlər davam etdirilmiş, ən nəhayət Bankın özünün təlim mərkəzinin yaradılması istiqamətində fəaliyyətə başlanılmışdır. Bütün bunlar son nəticədə Bankın xidmət səviyyəsində öz müsbət nəticəsini verməkdədir. Belə ki, Bankın uğuru onun peşəkar əməkdaşlarının vahid komanda kimi fəaliyyətinin nəticəsidir. Biz strateji hədəflərimizə çatmaq üçün texnoloji innovasiyalardan faydalanaraq və kadr potensialımızı inkişaf etdirərək öz uğurlu inkişafımızı davam etdirəcəyik.

TuranBank digər yerli banklar içərisində özünün Korporativ Sosial Məsuliyyət Proqramı çərçivəsində həyata keçirdiyi layihələri ilə də seçilməkdədir və ötən il də bu baxımdan istisna təşkil etməmişdir. Hesabat ilində Bank cəmiyyət qarşısında sosial məsuliyyətlilik dəyərlərinə necə ciddi önəm verdiyini həyata keçirdiyi müxtəlif sosial, humanitar, mədəni və idmanla bağlı layihələri ilə bir daha sübut etmişdir. Buraya gənc nəslin sağlamlığının və biliklərinin artırılması məqsədilə turnir, müsabiqə və seminarların keçirilməsi, onların karyera planlamaları istiqamətində olan tədbirlərə dəstək, köməyə ehtiyacı olan əhali təbəqəsi üçün müxtəlif növ humanitar layihələr və şənliklərin keçirilməsi, yeniyetmələrin maliyyə savadlılığının artırılması və s. kimi tədbirləri aid etmək olar. TuranBank gələcəkdə də özünün Korporativ Sosial Məsuliyyət Proqramı çərçivəsində həyata keçirdiyi layihələri ilə cəmiyyət qarşısında sosial məsuliyyətini şərəflə daşıyacaqdır.

Göründüyü kimi 2013-cü ildə TuranBankın əldə etdiyi uğurlar kifayət qədərdir. Ancaq bu heç də qarşıya qoyulan hədəflərin hamısının icra edilməsi demək deyil. Bizim əsas hədəfimiz daha yüksək nailiyyətlərə imza atmaq və dəyişkən rəqabət mühiti fonunda ölkənin sayılıb seçilən banklarından biri olaraq qalmaqdır. Bu niyyətin gerçəkliyə çevrilməsi üçün ən böyük dəstək isə məhz bizim Bankı seçmiş müştəri və biznes tərəfdaşlarımızın etimadıdır. Sonda, bizə etibar edən müştərilərimizə, bu etibarı daim doğrultmaq üçün çalışan peşəkar kollektivimizə və bizə daim dəstək olan səhmdarlarımıza öz dərin təşəkkürümü bildirirəm.

**Hamam tasları**
Azərbaycan, Mis, 19-cu əsr



# MAKROİQTİSADİYYAT

2013-cü il Azərbaycanda sosial-iqtisadi nailiyyətlərlə yadda qalmışdır. Belə ki, ötən ilin qeyri-sabit qlobal iqtisadi mühitində ölkədə makroiqtisadi sabitlik qorunub saxlanılmış, iqtisadiyyatın diversifikasiyası genişlənmiş, qeyri-neft sektorunun, regionların inkişafı sürətlənmiş, özəl bölmənin inkişafı üçün azad rəqabət və münbit investisiya mühiti yaradılmışdır. Bunlar ölkə iqtisadiyyatının əsas makroiqtisadi göstəricilərinin, sənaye və kənd təsərrüfatı istehsalının yüksəlməsinə, yeni iş yerlərinin yaradılmasına təkan verməklə bütövlükdə əhalinin real gəlirlərinin artması və sosial rifahının daha da yaxşılaşmasına səbəb olmuşdur. Hər bir ölkənin iqtisadi inkişafının göstəriciləri təbii ki, ilk olaraq rəqəmlərdə ifadə olunur. Bu rəqəmlər isə 2013-cü ili sürətli inkişaf ili kimi səciyyələndirir.

2013-cü ildə Azərbaycanda ÜDM nominal ifadədə 5,8%, mütləq ifadədə 3,7 mlrd. manat artaraq 57,7 mlrd. manata çatmışdır. Adambaşına düşən ÜDM 4,4% artımla 6207,3 manat olmuşdur. Neft-qaz sektorunda ÜDM-un istehsalı 1% artmış və bu sektorun ÜDM-da xüsusi çəkisi 43,4% təşkil etmişdir. Hesabat ilində qeyri-neft sahələrinin inkişaf dinamikası ümumilikdə bu sahənin real ifadədə 10% artması ilə nəticələnmişdir. Belə ki, 2012-ci ilə nisbətən 2013-cü ildə qeyri-neft sektorunda rabitə sahəsi 10,7%, nəqliyyat sahəsi 6,3%, tikinti sahəsi 23%, kənd təsərrüfatı 4,9%, ticarət sahəsi isə 9.9% artmışdır. Qeyri-neft sektorunun ÜDM-da xüsusi çəkisi 56,6%-ə bərabər olmuşdur ki, məhz ÜDM-un artımı əsasən bu sektorun hesabına baş vermişdir.

Hesabat ilində ÜDM-un 46,3%-i sənayedə, 11,8%-i tikintidə, 7,1%-i ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə xidmətlər sahəsində, 5,3%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda, 4,8%-i nəqliyyat və anbar təsərrüfatında, 1,8%-i turistlərin yerləşdirilməsi və ictimai iaşə xidmətləri sahəsində, 1,8%-i informasiya və rabitədə, 14,7%-i sosial və digər xidmət sahələrində istehsal olunmuş, məhsula və idxala görə ödənilmiş xalis vergilərin payı isə 6,4% təşkil etmişdir.



**Qablama (qapaqlı) qazanlar**
Azərbaycan, Mis, 19-cu əsrin ortaları

## 2013-cü ildə ÜDM-in strukturu, %




| | | |
|---|---|---|
| 1 | Sənaye | 46.3 |
| 2 | Sosial və fərdi xidmətlər | 14.7 |
| 3 | Tikinti | 11.8 |
| 4 | Ticarət və xidmətlər | 7.1 |
| 5 | Məhsul və idxala xalis vergilər | 6.4 |
| 6 | Kənd, meşə təsərrüfatı və balıqçılıq | 5.3 |
| 7 | Nəqliyyat və anbar təsərrüfatı | 4.8 |
| 8 | İnformasiya və rabitə | 1.8 |
| 9 | Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 1.8 |

## Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşlarının illər üzrə artım dinamikası, mlrd. USD




Statistik göstəricilər Azərbaycan iqtisadiyyatına investisiya qoyuluşlarının illər üzrə yüksələn xətlə davam etdiyini göstərir. Hesabat ilində Azərbaycana rekord səviyyədə - 28 mlrd. ABŞ dolları dəyərində investisiya qoyulmuşdur ki, bunun da 63%-ə yaxını (17,5 mlrd. ABŞ dolları) daxili sərmayə olmuş, yerdə qalan 37% investisiyalar isə xarici investorların payına düşmuşdur. Dövlətin və yerli özəl müəssisələrin yatırımlarının ildən ilə xarici sərmayələri üstələməsi ölkə iqtisadiyyatının möhkəmlənən qüdrətindən xəbər verir. Bundan başqa 2013-cü ildə Azərbaycanın dövlət müəssisələri və özəl şirkətləri xarici ölkələrdə müxtəlif infrastruktur layihələrinin icrasında iştrirak etmişdir.

Qoyulan investisiyaların artım tempi ölkədəki işgüzar mühitin cəlbediciliyinin artırılması istiqamətində atılan addımların uğurundan xəbər verir. Bu sahədə Azərbaycanın əldə etdiyi uğurlar Dünya Bankının "Doing business 2014" hesabatında da öz əksini tapmışdır. Hesabatda 189 ölkə arasında Azərbaycan, əmlakı qeydiyyata almaq meyarı üzrə 13-cü yerdə, işgüzar fəaliyyətə başlamaq meyarı üzrə 10-cu yerdə, investorları qorumaq meyarı üzrə 22-ci yerdə və kredit əldə etmək meyarı üzrə isə 55-ci yerdə qərarlaşmışdır. Azərbaycan ümumilikdə işgüzar fəaliyyətlə məşğul olmağın asanlığı meyarı üzrə 189 ölkə arasında 70-ci yeri tutmuşdur.

Hesabat ilində Azərbaycanın strateji valyuta ehtiyatları 50 mlrd. ABŞ dollarını ötmüşdür. Bu da ümumi daxili məhsulun 70%-ni təşkil edir. Dünya miqyasında bu göstəriciyə görə Azərbaycan ən qabaqcıl yerlərdədir. Valyuta ehtiyatlarının yüksək artım tempi ölkə iqtisadiyyatının xarici böhran təzahürlərinə həssaslığının azalması üçün əsas amildir.

Həyata keçirilən sosial-iqtisadi inkişaf kursunun nəticəsi olaraq əhalinin rifahı artmaqda davam etmişdir. Bu artım ötən ilin statistik rəqəmlərində ifadə olunur. Belə ki, göstərilən dövr ərzində əhalinin gəlirləri 8% artaraq 37,6 mlrd. manata, adambaşına düşən gəlir 6,6% artaraq 4039 manata və orta aylıq əmək haqqı 6,6% artaraq 419 manata çatmışdır. Ölkədə 110 min yeni iş yeri açılmış (80 mini daimi iş yeri), işsizlik səviyyəsi 5%-ə, yoxsulluq səviyyəsi 5,3%-ə enmişdir.

## Strateji valyuta ehtiyatlarının illər üzrə artım dinamikası, mlrd. USD



## Yoxsulluğun illər üzrə səviyyəsi, %




Hesabat ilində 2011-2013-cü illərdə Bakı şəhəri və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrası da uğurla davam etdirilmişdir. Qəsəbələrdə su, elektrik enerjisi, qaz təminatı təkmilləşdirilmiş, yeni yolların salınması və bərpası işləri davam etdirilmiş, tibb məntəqələrinin inşası təmin edilmişdir.

Bakı qəsəbələri üzrə 680 sahibkara 148 mln. manat güzəştli kreditlər verilmiş və 5300-dək yeni iş yerinin açılması imkanı yaranmışdır. Müasir texnologiyaların tətbiqinə əsaslanan 53 iri layihə, o cümlədən 13 çörək zavodu, 48 hektar ərazidə 13 istixana kompleksi, 9 quşçuluq təsərrüfatı, 2 ət emalı fabriki, 2 metal konstruksiya və 14 digər sənaye müəssisəsi maliyyələşdirilmişdir.

Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun əsas sahələrindən olan kənd təsərrüfatında məhsul istehsalının stimullaşdırılması, rəqabət qabiliyyətinin artırılması, əhalinin ərzaq məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi və ixracın genişləndirilməsi məqsədilə subsidiyaların verilməsi, vergi güzəştlərinin tətbiqi, lizinq xidmətlərinin genişləndirilməsi kimi kompleks dövlət dəstəyi tədbirlərinin həyata keçirilməsi aqrar sektorun inkişafına müsbət təsir göstərmiş və məqsədyönlü tədbirlər nəticəsində hesabat ilində kənd təssürüfatı məhsullarının istehsalı 5 mlrd. 245 mln. manat təşkil edərək ötən illə müqayisədə 4,9%, o cümlədən bitkiçilik məhsulları üzrə 4,2%, heyvandarlıq məhsulları üzrə 5,5% artmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli 3004 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" çərçivəsində ölkədə kənd təsərrüfatı sahəsinin inkişafı məqsədilə güzəştli kreditlərin verilməsi, subsidiyaların ayrılması, aqrolizinq xidmətlərinin göstərilməsi və vergi güzəştlərinin tətbiqi təmin edilmişdir. Bütün bunların müsbət nəticəsidir ki, ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı ümumilikdə 4,9% artmışdır.

2013-cü ildə qiymət sabitliyi təmin edilmiş və inflyasiyanı aşağı səviyyədə saxlamaq mümkün olmuşdur. Göstərilən dövrdə orta illik inflyasiya 2,4% həddində müəyyən edilmişdir. Dünya İqtisadi Forumuna görə Azərbaycan dünyada ən aşağı inflyasiyaya malik 7 ölkədən biri olmuşdur. Ticarət tərəfdaşları ilə müqayisədə qiymətlərin artım tempinin aşağı olması iqtisadiyyatın rəqabət qabiliyyətliliyini dəstəkləmişdir.

Hesabat ili ərzində geniş pul kütləsi iqtisadiyyatın tələbatına uyğun olaraq artmış və onun strukturunda yaxşılaşma prosesi davam etmişdir. 2013-cü ilin sonuna dövriyyədə olan pul kütləsinin həcmi 19 mlrd. manata çatmış və əvvəlki illə müqayisədə 15,4% artmışdır. 2013-cü ildə dollarlaşma göstəriciləri azalmaqda davam etmişdir. Xarici valyutada depozitlərin cəmi əmanət və depozitlərdə xüsusi çəkisi 6,6 faiz bəndi azalaraq 32,9%-ə düşmüşdür. Xarici valyutada əmanətlərin M3 pul kütləsində payı isə 2,6 faiz bəndi azalaraq 15,1% təşkil etmişdir. Həmçinin il ərzində xarici valyutada əmanət və depozitlər 1,5% azalmış, əvəzində manatla əmanət və depozitlər isə 31,4% artmışdır. İl ərzində nağdsız pul kütləsi 18,4% və ya 1,4 mlrd. manat artaraq 8,9 mlrd. manata yüksəlmişdir ki, bu da Mərkəzi Bankın bu istiqamətdə gördüyü tədbirlərin nəticəsidir.

# BANK SEKTORU

2013-cü ildə Azərbaycanın bank sektoru dinamik surətdə inkişaf etməkdə davam etmiş və bu artım göstəriciləri ölkənin ümumi iqtisadi inkişafının dinamikasına müvafiq olmuşdur.

Hesabat dövrünün yekunlarına görə Azərbaycanda bank fəaliyyətinin həyata keçirilməsi üçün ümumilikdə 191 maliyyə təşkilatının lisenziyası olmuşdur. Bu maliyyə təşkilatlarından 42-i özəl, 1-i dövlət bankı, qalan 148-i isə bank olmayan maliyyə təşkilatlarıdır.

Əvvəlki illə müqayisədə hesabat ilində bankların sayında dəyişiklik olmamış, bank olmayan kredit təşkilatlarının sayında isə artım müşahidə edilmişdir. Ümumilikdə bank olmayan kredit təşkilatlarının sayı 11% artaraq hesabat ilinin sonuna 148-ə çatmışdır ki, bu təşkilatların da böyük qismini kredit ittifaqları (111), qalan hissəsini beynəlxalq humanitar təşkilatların maliyyələşdirdiyi kredit təşkilatları təşkil etmişdir. Hesabat ilində ölkədə bank sektorunun maliyyə sabitliyinin və dayanıqlığının gücləndirilməsi məqsədilə Mərkəzi Bankın 25 iyul 2012-ci il tarixində qəbul etdiyi qərarının icra müddəti 2014-cü ilin sonuna qədər uzadılmışdır. Məlumat üçün bildirək ki, bu qərara əsasən fəaliyyətdə olan bankların məcmu kapitalının, yeni yaradılacaq bankların isə nizamnamə kapitalının həcmi 50 mln. manat müəyyən edilmişdir. Bu tədbirlərin nəticəsi olaraq bank sektorunun orta kapitalı hesabat ilində 2012-ci illə müqayisədə 27,5% artaraq 2,97 mlrd. manat təşkil etmişdir.

Hesabat ilində ölkədə 1 dövlət bankı fəaliyyət göstərmiş və xarici kapitala malik bankların sayı 22-yə bərabər olmuşdur. Xarici kapitallı bankların əksəriyyətində (13 bank) xarici kapital nizamnamə kapitalının 50%-dən az olan hissəsini təşkil etmişdir. 2013-cü ildə ölkədə xarici banklara məxsus 2 filial, 4 nümayəndəlik fəaliyyət göstərmişdir.



**Məcməyi**
Azərbaycan, Mis, 19-cu əsrin əvvəlləri

2013-cü ilin sonuna ölkədə fəaliyyət göstərən bankların filiallarının və şöbələrinin sayı artmışdır. 2012-ci ildə bankların 655 filialı, 158 şöbəsi, hesabat ilində isə 700 filialı, 148 şöbəsi fəaliyyət göstərmişdir. Hesabat ilində bank olmayan kredit təşkilatlarının filiallarının sayında dəyişiklik olmasa da (63 filial), şöbələrinin sayı 7% artaraq 952-ə çatmışdır.

Bankların xarici ölkələrdə fəaliyyət göstərən strukturlarının sayında artım müşahidə olunmuşdur. Belə ki, 2013-cü ildə bankların xaricdə törəmə banklarının sayı 2-dən 4-ə çatmış və 7 nümayəndəliyi fəaliyyət göstərimişdir.

Ötən il ölkədə fəaliyyət göstərən 43 bankdan 39-u fəaliyyətini 272,32 mln. manat mənfəətlə, 4 bank isə 4,75 mln. manat zərərlə başa vurmuş, nəticədə bankların əldə etdiyi yekun mənfəət 267,57 mln. manat təşkil etmişdir. Əvvəlki illə müqayisədə hesabat ilində əldə edilən yekun mənfəətin həcmi iki dəfədən çox artmış (2012-ci ildə bu rəqəm 130,01 mln. manat təşkil etmişdir), mənfəətlə fəaliyyət göstərən bankların sayı 2012-ci illə müqayisədə 33 bankdan 39 banka kimi yüksəlmişdir. Göstərilən dövr ərzində ili zərərlə başa vuran bankların sayı 10-dan 4-ə enmişdir.

Əvvəlki illə müqayisədə 2013-cü ildə ölkədə bank sektorunun aktivləri 23% artmış və 20,385 mlrd. manata bərabər olmuşdur.

## Bank sektorunun aktivlərinin illər üzrə artım dinamikası, mlrd. AZN



Hesabat dövrü üzrə bank sektorunda müştərilərə verilən kreditlərin həcmi 14,2 mlrd. manat, bankların məcmu kapitallarının ümumi həcmi 3,4 mlrd. manat, cəmi depozitlərin həcmi 8,9 mlrd. manat olmuşdur.

2013-cü ilin sonuna ölkədə fəaliyyət göstərən bankların müştərilərinin ümumi sayı bundan əvvəlki illə (3,702 mln. nəfər) müqayisədə 42% artaraq 5,275 mln. nəfəri ötüb keçmişdir.

Son beş il ərzində kredit təşkilatları tərəfindən iqtisadiyyata yönləndirilən kreditlərin həcmində 83% artım müşahidə edilmişdir. Kredit təşkilatları tərəfindən 2013-cü ildə iqtisadiyyata qoyulan kreditlərin həcmi 15,4 mlrd. manata çatmışdır və bu göstərici 2012-ci ilin göstəricindən (12,2 mlrd. manat) 26% artıq olmuşdur.

## İqtisadiyyata kredit qoyuluşları, mlrd. AZN




## Kredit qoyuluşlarının sahələr üzrə strukturu,% (2013)



Kreditlərin əksər hissəsi, yəni 62,8%-i ölkədə fəaliyyət göstərən özəl bankların (9689,4 mln. manat) hesabına verilmişdir. Bu göstəricidə dövlət banklarının payı 34,4% (5300,4 mln. manat), qeyri-bank kredit təşkilatlarının payı isə 2,8% (433,1 mln. manat) təşkil etmişdir.

Statistik məlumatlar göstərir ki, hesabat ilində kredit qoyuluşlarının 72%-ə qədəri (11076,7 mln. manat) milli valyutada həyata keçirilmişdir. Həm milli, həm də xarici valyutada iqtisadiyyata yönləndirilən kreditlərin əsas hissəsini (57%) uzunmüddətli kreditlər təşkil etmişdir. Hesabat ilində real sektora istiqamətləndirilən kreditlərin ümumi həcmində ev təsərrüfatlarına (40,3%), inşaat və əmlak (15,3%), ticarət və xidmət (14,4%), sənaye və istehsal (9,8%), kənd təsərrüfatı və emal (4,8%), nəqliyyat və rabitə (3,3%), energetika, kimya və təbii ehtiyatlar (1,9%) sektorlarına verilən kreditlər  xüsusi çəkiyə malik olmuşlar.

## Kredit qoyuluşlarının kredit təşkilatları üzrə strukturu,% (2013)




Hesabat dövründə kredit təşkilatlarında yerləşdirilmiş depozit və əmanətlərin ümumi həcmi 2012-ci illə (10,6 mlrd. manat) müqayisədə 16,6% artaraq 12,4 mlrd. manatı ötmüşdür. Kredit təşkilatlarında ev təsərrüfatları tərəfindən yerləşdirilən əmanət və depozitlər 6,4 mlrd. manat, maliyyə təşkilatları tərəfindən yerləşdirilən əmanət və depositlər 3,1 mlrd. manat və qeyri-maliyyə təşkilatları tətəfindən yerləşdirilən əmanət və depozitlər 2,8 mlrd. manat təşkil etmişdir. Kredit təşkilatlarında əmanət və depozitlərin yerləşdirilməsində ev təsərrüfatları milli valyutaya, təşkilatlar (maliyyə və qeyri-maliyyə) isə xarici valyutaya üstünlük vermişdirlər.

Ölkə əhalisi tərəfindən banklara göstərilən yüksək etimadın nəticəsi olaraq, 2013-cü ildə bank öhdəliklərinin tərkibində fiziki şəxslərdən cəlb olunmuş əmanətlərin həcmi əvvəlki ilə nisbətən 25% artaraq 6,4 mlrd. manat təşkil etmişdir. Müqayisə üçün, 2012-ci ildə bu göstərici 5,1 mlrd. manat olmuşdur. Əhalinin gəlirlərinin və eyni zamanda onların banklara inamının artmasını son 5 ilin göstəricilərinin müqayisəsi daha bariz surətdə göstərir. Belə ki, 2009-cu illə müqayisədə hesabat dövründə fiziki şəxslərin banklardakı əmanətlərinin həcmi 3 dəfəyədək artmışdır.

Statistik məlumatlar göstərir ki, 2013-cü ildə ölkədə 5673 min ödəniş kartı istifadədə olunmuşdur. Bu, əvvəlki ilin analoji göstəricisi ilə (5008 min ədəd) müqayisədə 13,2% çoxdur. Hesabat ilində ödəniş kartlarının 44,2%-ni (2505 min ədəd) sosial kartlar, 25,3%-ni (1437 min ədəd) əmək haqqı kartları, 13,9%-ni (788 min ədəd) digər kartlar və 16,6%-ni (942 min ədəd) kredit kartları təşkil etmişdir. 2012-ci ilə nisbətən kredit kartlarının sayı iki dəfə artmışdır. Hesabat ilində ödəniş kartları (debet və kredit kartları) vasitəsilə həyata keçirilən əməliyyatların ümumi həcmi 1149 mln. manata çatmışdır ki, bu da 2012-ci ilin göstəricisindən 24% çoxdur. Aparılan əməliyyatların 93,5%-nin (1074 mln. manat) ölkə ərazisində həyata keçirilməsi Azərbaycan hökümətinin nağdsız hesablaşmaların həcmini artırmaq istiqamətində gördüyü tədbirlərin artıq ciddi nəticələr verdiyindən xəbər verir.

## Kredit təşkilatlarında fiziki şəxslərin əmanətlərinin artım dinamikası, mlrd. AZN




## Ödəniş kartlarının növləri üzrə bölgüsü, % (2013)



# KREDİTLƏŞMƏ

Bankın kreditləşmə istiqaməti demək olar ki, onun biznes fəaliyyətinin böyük hissəsini təşkil edir. Bank, götürdüyü strateji kursa əsaslanaraq 2013-cü ildə də əhali, mikro və KOS istiqamətində fəal kreditləşmə siyasətini həyata keçirmişdir. Bu sahədə Bankın əsas məqsədi portfelin balanslaşdırılmış diversifikasiyasını istər iqtisadi sahələr, istərsə də seqmentlər üzrə təmin etməkdir. Bu istiqamətdə Bankın əsas hədəfi respublikda, xüsusilə də regionlarda biznes fəallığını dəstəkləməklə özünün kommersiya maraqları ilə yanaşı, cəmiyyət qarşısında olan sosial məsuliyyəti üzrə götürdüyü öhdəliyin də icrasını təmin etməkdir. Qeyd olunan sahədə Bank, yerli, eyni zamanda bir sıra beynəlxalq maliyyə institutları ilə də sıx əməkdaşlıq edir. Kreditləşmə sahəsinin ölkənin biznes mühitinə və Bankın fəaliyyətinə verəcəyi müsbət töhvələri nəzərə alaraq, Bank bu sahədə fəaliyyətinin genişləndirilməsi istiqamətində respublika üzrə satış nöqtə və kanallarının artırılmasını, eyni zamanda müsbət mənada aqressiv satış fəaliyyətini həyata keçirməyi planlaşdırmışdır. Deyilənlərlə yanaşı, Bank kreditləşmə fəaliyyətini sosial-ekoloji fəaliyyətlə də uzlaşdırmağı qarşısına əsas məqsəd kimi qoymuşdur. Burada enerji səmərəliliyi, təkrar istehsal, ekologiyaya müsbət təsirli layihələrin kreditləşdirilməsi kimi vəzifələri qeyd etmək olar. Bankın universal modul üzərində qurulan fəaliyyəti çərçivəsində ümumi kreditləşmə kursunu aşağıdakı kimi təsnifləşdirmək olar:



**Kəfgir (qatlanan)**
Azərbaycan, Mis, 19-cu əsrin ortaları

## Fiziki şəxslərin kreditləşməsi

Bankın ümumilikdə kreditləşmə fəaliyyəti üzrə önəm verdiyi sahələrdən biri də pərakəndə bankçılıqdır. Bu sahədə Bank, əhalinin əsas ehtiyaclarını onların seqmentinə və tələbinə uyğun hazırlayaraq geniş çeşidli bank məhsulları hazırlamış və hesabat ilində də bu sahədə olan fəallığını qoruyub saxlamışdır. Bu sahədə Bank, istehlak seqmenti üzrə ilk dəfə faiz dərəcələrini illik 20%-dək endirərək geniş əhali kütləsinə daha sərfəli kredit şərtləri təqdim etmişdir. Belə ki, hesabat ilində ümumi verilən kreditlərin tərkibində pərakəndə bankçılıq istiqamətində verilən kreditlər 50,8 mln. manat olmaqla xüsusi çəki etibarı ilə 31,1% təşkil etmişdir. Pərakəndə bankçılıq istiqamətində Bankın təqdim etdiyi məhsullara aşağıdakılar daxildir:

- Kiçik həcmli istehlak krediti
- Müəllim krediti
- Səhiyyə krediti
- Hərbçi krediti
- Tələbə krediti
- Yubiley krediti
- Avtomobil krediti
- Lombard krediti
- Təmir krediti
- Təqüdçü krediti
- Kredit kartları
- İpoteka krediti

Bank əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində dövlət proqramlarına dəstək olaraq ipoteka kreditlərinin Azərbaycan İpoteka Fondunun vəsaitləri hesabına, eyni zamanda daxili resurslar hesabına verilməsini hesabat ilində də davam etdirmişdir. Bu istiqamət üzrə Bank hesabat ilində 2012-ci illə müqayisədə 3 dəfə artıq, yəni 13,4 mln. manat kredit vermişdir ki, bu da 2013-cü il üzrə ümumi verilmiş kreditlərin 8,2%-ni təşkil etmişdir. Hesabat dövrünə ipoteka üzrə kredit portfelinin qalığı 22,2 mln. manat, portfel üzrə orta faiz dərəcəsi isə 9,6% təşkil etmişdir. Hesabat dövrünün sonuna ipoteka kreditləri üzrə portfelin məcmu kredit portfelində xüsusi çəkisi 12% təşkil etmişdir.

Bankın pərakəndə bankçılıq sahəsində digər kreditləşmə istiqaməti isə kredit kartları vasitəsilə nağdsız ödənişlərin genişləndirilməsidir. Bu hədəf qrupu üzrə hesabat ilində verilən kreditlərin həcmi 2,5 mln. manat olmuşdur.



**Samovar**
Azərbaycan, Mis, 19-cu əsr

## Mikromaliyyələşmə

Mikromaliyyələşmə artıq Bankın kreditləşmə fəaliyyətində xüsusi önəm kəsb edir. Belə ki, mikromaliyyələşmə sahəsində Bank, qabaqcıl nəzəri və təcrübi dəyərlərdən istifadə etməklə kreditləşmə fəaliyyətində əsaslı dəyişikliklərə nail olmuşdur. Bank hesabat ilində mikrokredit məktəbinin quruculuq işlərini davam etdirmiş, bu sahədə fundamental baza qurulmasına, kreditləşmə sahəsində bazarda davamlı müştəri mövqeyinə (xırda biznesdən KOS və korporativə doğru) nail olmuşdur. Hesabat ilində mikromaliyyələşmə sahəsində yaradılmış kredit məhsullarının (fərdi mikrokredit və həmrəy qrup krediti) satış əhatəsi genişləndirilərək regional satış nöqtələrini də əhatə etmişdir. Hesabat ilində bu sahə üzrə işçi heyətinin peşəkarlığının artırılması istiqamətində də tədbirlər görülərək əlavə satış işçiləri cəlb olunmuş və bu sahədə bir sıra təlim proqramları tədris olunmuşdur.

Hesabat ilində verilən mikrokreditlər ümumi verilən kreditlərin 4,6%-ni təşkil etməklə 7,5 mln. manat olmuşdur ki, bu da 2012-ci illə müqayisədə 4 dəfəyədək artım deməkdir. Hesabat ilində mikrokredit portfelinin ümumi qalığı 5,8 mln. manat, orta faizi 29,6%, portfeldə xüsusi çəkisi isə 3% təşkil etmişdir.



Çıraq– fanus
Azərbaycan. Mis. 19-cu əsrin əvvəli

## Biznes və layihə kreditləri

Biznes fəallığının artırılması, eləcə də biznes subyektləri, KOS-larla iş Bankın prioritet sahələrindən biri hesab olunur. Bank, hesabat ilində sahibkarlara təqdim olunan kreditləşmədə faiz dərəcələrinə yenidən baxaraq onları aşağı salmış, müddətlər isə Bankın öhdəlik hissəsinə uyğun tənzimlənmişdir. Bankın beynəlxalq maliyyə institutları ilə aparılmış əməkdaşlığının uğurlu nəticəsi kimi, uzunmüddətli və daha aşağı faizli kreditlərin təqdim olunması fonunda hesabat ili ərzində biznes və layihə kreditləri çərçivəsində şərtlərə müsbət yönümlü dəyişikliklər edilmişdir ki, bu da mövcud sahibkarlarla yanaşı Banka yeni sahibkar müştərilərin cəlbi ilə nəticələnmişdir.

Respublikamızın müxtəlif regionlarında həm bankın daxili vəsaitləri hesabına, həm də yerli maliyyə institutlarından cəlb olunmuş güzəştli vəsaitlər hesabına dövlətin iqtisadi siyasətini dəstəkləyən biznes kreditləşməsi nəzərə çarpacaq dərəcədə artırılmış, kiçik və orta sahibkarlıq subyektlərinin mövcud bizneslərini inkişaf etdirmək və yeni biznes sahələrinə investisiya qoyuluşunu stimullaşdırmaq məqsədilə maliyyə dəstəyi gücləndirilmişdir.

Hesabat ilinin sonuna kredit müştərilərinin sayı 2012-ci illə müqayisədə 19,3% artaraq 21,252 təşkil etmişdir. Ümumilkdə isə 2013-cü il üzrə verilən kreditlər 2012-ci illə müqayisədə 15% artaraq 163 mln. manat təşkil etmişdir.

Əlavə olaraq qeyd etmək lazımdır ki, Bank hesabat ilində yerli fondlar qismində Sahibkarlığa Kömək Milli Fondu və Kənd təsərrüfatı Kreditləri üzrə Dövlət Agentlikləri ilə əməkdaşlıq çərçivəsində kreditləşmə fəaliyyətini davam etdirmişdir. Belə ki, bu fondlar hesabına məcmu kreditləşmənin qalığı hesabat dövrünə müvafiq olaraq 22,8 mln. və 8,9 mln. manat təşkil etmişdir. Bank eyni zamanda əməkdaşlıq etdiyi beynəlxalq maliyyə institutları vasitəsilə KOS-un inkişafına dəstəyi ötən illərdə olduğu kimi hesabat ilində də davam etdirmişdir. Hesabat ilinin sonuna ICD təşkilatı ilə maliyyələşən layihələrin qalığı 4,1 mln., BMK (IFC) vasitəsilə kreditləşən layihələrin qalığı 3,6 mln., WBC/OPIC vasitəsilə 3,2 mln. manat olmuşdur. Bankın KOS-un dəstəklənməsi üzrə digər əsas fəaliyyət istiqamətlərindən biri də ticarətin maliyyələşdirilməsidir. Bu sahədə Bankın 2013-cü ildə Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə əməkdaşlığı çərçivəsində maliyyələşdirdiyi layihələrin qalığı 3,2 mln. manat təşkil etmişdir.

## Kredit portfelinin illər üzrə artım dinamikası, mln .AZN




## Kredit portfelinin iqtisadi sahələr üzrə bölgüsü, 2013




- Ticarət və xidmətlər
- İstehsal
- Kənd təsərrüfatı
- Tikinti
- Digər
- İstehlak

## Kredit portfelinin təminat növləri üzrə bölgüsü, 2013



- Daşınmaz əmlak
- Qarantiya məktubları
- Nəqliyyat vasitələri
- Nağd vəsait və depozitlər
- Avadanlıq
- Qiymətli kağızlar
- Zinət əşyaları
- Digər
- Girovsuz və ya təminatsız



Kəfgir (qatlanan)
Azərbaycan, Mis, 19-cu əsrin ortaları

# MÜŞTƏRİ XİDMƏTLƏRİ

Bankın 2012-2015-ci illəri əhatə edən Strateji Planında qarşıya qoyulan, xidmət şəbəkəsi və müştəri xidmətilə birbaşa əlaqəsi olan əsas məqsədlərə misal olaraq müasir tələblərə cavab verən maliyyə məhsul və xidmətlərinin çeşidinin artırılması, bank fəaliyyətində ən müasir texnologiyaların tətbiqi, Bankın mövcüd filiallarının səmərəliliyinin artırılması və xidmət şəbəkəsinin genişləndirilməsini göstərmək olar. Hesabat ilində Bank göstərilən məqsədlərə çatmaq üçün aktiv işlər görmüşdür.

Coğrafi nöqteyi-nəzərdən filial şəbəkəsinin daha da əhatəli olması, şəbəkə sisteminin vahid mərkəzdən idarə olunması və müştərilərə təqdim edilən bank məhsullarının eyniləşdirilməsi məqsədilə hər il olduğu kimi, hesabat ilində də filial şəbəkəsinin optimallaşdırılması davam etdirilmişdir. Bir sıra filialların texniki təchizatı yaxşılaşdırılmış, Sahil filialı isə daha əlverişli mövqeyə malik yeni, geniş ofisə köçürülmüşdür. Bankın filiallarının yeni ofislərə köçürülməsi müştərilərə daha rahat xidmətin göstərilməsi və müştəri xidməti keyfiyyətinin artırılması məqsədilə həyata keçirilir.

Bankın xidmət şəbəkəsinə daxil olan filial, nümayəndə və valyuta mübadilə şöbələrinin yerləşmə coğrafiyası özünəməxsusluğu ilə seçilir. Hesabat ilində Bankın 14 satış nöqtəsi, 6 nümayəndə və 19 mübadilə məntəqəsi fəaliyyət göstərmişdir. Bankın müştəri xidməti nöqtələrinin 7-si Bakı şəhərində, digərləri isə regionlarda olmaqla, Sumqayıt, Gəncə, Tovuz, Ağstafa, Zaqatala, Xaçmaz və Qazax rayonlarını əhatə edir.



Hamam sandığı (qulplu)
Azərbaycan, Mis, 19-cu əsr

Bankın bütün satış nöqtələrində müştərilərə geniş çeşiddə yüksək keyfiyyətli və operativ məhsul və xidmətlər təklif olunur. Bura hesablaşma-kassa əməliyyatları, müxtəlif növ istehlak və biznes kreditləri, sənədli əməliyyatların aparılması, cari və əmanət hesablarının açılması, plastik kartlarla əməliyyatlar, pul köçürmələri, investisiya qoyuluşları üzrə məsləhət xidmətlərinin təqdim olunması, kommunal və rabitə xidmətlərinin ödənişi, yerli və beynəlxalq pul köçürmələri və s. daxildir.

Bankımız filial şəbəkəsinin genişləndirilməsi üçün balanslaşdırılmış və səmərəliliyə hədəflənmiş siyasət yürütməkdə davam etmişdir. Bankın 2012-2015-ci illəri əhatə edən Strateji Planına əsasən filial və şöbələrin sayının ümumilikdə 19-a çatdırılması nəzərdə tutulmuşdur ki, onların da əksəriyyəti, yəni 12-i regionların payına düşür. Paytaxtdan kənar rayonlarda yeni filial şəbəkəsi yaratmaqla Bankımız regionların sosial-iqtisadi inkişafı ilə bağlı ölkə rəhbərliyinin apardığı siyasətə dəstəyini daha da gücləndirmiş olacaq. Belə ki, yeni filiallar vasitəsilə yerli iqtisadiyyata yönəldilən investisiya qoyuluşları hesabına sahibkarlığın inkişafına təkan verməklə, yerlərdə əhalinin məşğulluq səviyyəsinin yüksəlməsi və rifahının yaxşılaşdırılması baş verəcək və ən nəhayət insanları yüksək səviyyəli bank xidməti ilə təmin etmək mümkün olacaqdır.

Hər zaman müştərilərin məmnunluğunu düşünən TuranBank 2013-cü ildə də müştərilərin rahatlığı üçün layihələr həyata keçirməkdə davam etmişdir. Hesabat ilində müasir texnologiyaların tətbiqi hesabına Bankın məsafədən xidmət göstərilməsi imkanları genişləndirilmiş, müştərilərin bir sıra bank əməliyyatlarını aparmaq və xidmətlərdən yararlanmaları üçün Banka gəlmələrinə artıq ehtiyac qalmamışdır. Hesabat ilində Bankımız təhsil müəssisələrinin əməkdaşları, səhiyyə işçiləri, tələbə və hərbçilərə, təqaüdçü və yubileylərini qeyd edən müştərilərə, kiçik, orta və iri biznes sahiblərinə hədəflənən kredit məhsullarının şərtlərini təkmilləşdirmiş, kreditlərin illik faizlərini endirməklə onları müştərilər üçün daha da sərfəli etmişdir. Təsadüfi deyil ki, Bank hesabat ilində müştərilərə verilən kreditlərin səmərəliliyini artırmaq məqsədilə həyata keçirdiyi "Muştuluq" kampaniyası çərçivəsində istehlak kreditlərinin faizlərində ciddi endirim edən ilk Bank kimi yadda qalmışdır. Bundan əlavə, Bank demək olar ki, bütün peşə sahiblərini peşə bayramları münasibətilə kredit faizlərində endirim aksiyaları ilə də il boyu sevindirmişdir. Bank, bu xoş ənənəni növbəti illərdə də davam etdirməklə müştərilərinin etimadını doğrultmaq niyyətindədir.

Bankın 2012-ci ildə məsafədən xidmət göstərilməsi sahəsində əldə etdiyi nailiyyətlərdən olan kredit ödənişlərinin MilliÖn ödəniş terminalları vasitəsilə qəbulunun təşkili layihəsi hesabat ilində də istər təkrar, istərsə də yeni müştərilərin kredit məhsulları üzrə bank seçimində məhz TuranBanka üstünlük vermələri ilə nəticələnmişdir. Müştəri məmnunluğunun təmin edilməsi məqsədilə həyata keçirilən bu layihə, respublikadaxili geniş şəbəkəyə malik MilliÖn ödəniş terminalları vasitəsilə aparılan əməliyyatların say və həcm baxımından artımı ilə müşahidə olunmuşdur. Tətbiqi uğurla nəticələnən layihənin davamı kimi, hesabat ilində Bank, müştərilərin kredit ödənişlərinin onlayn qəbulu üzrə növbəti layihəni uğurla tamamlamışdır. Bu da öz növbəsində müştərilərə müxtəlif internet portallarından plastik kartlar vasitəsilə Bankda olan kredit borclarını vaxt itkisi olmadan ödəməyə imkan verir. Nağdsız əməliyyatların genişləndirilməsi istiqamətində qarşıya qoyulan vəzifələrin icrası fonunda qeyd olunan layihənin əhəmiyyəti danılmazdır.

Ötən il digər bankların əmanətlərin faizlərində həyata keçirdikləri ciddi endirimlərə baxmayaraq, Bank Sirlər Xəzinəsi əmanət kampaniyası üzrə faiz dərəcələrini hesabat ili ərzində də rəqabətçil səviyyədə saxlamış və

müştərilərin əmanətlərinin Əmanətlərin Sığortalanması Fondu tərəfindən sığortalanması üçün seçim imkanı verən yeni Çətir əmanət məhsulunu işləyib hazırlamışdır.

Müştərilərə göstərilən xidmətin keyfiyyətinin, onlara təqdim olunan məhsulların çeşidinin və səmərəliliyinin artırılması məqsədilə hesabat dövründə Bankın xidmət və məhsulları haqqında müştərilərin fikir, irad və təkliflərini dinləmək məqsədilə Bankın satış nöqtələrində "Müştəri Günləri" keçirilmişdir. Bundan əlavə, Bankın satış nöqtələrində müştərilərin mütəmadi istifadə edə biləcəkləri digər əlaqə kanalı kimi "Şikayət və Təklif" qutuları yerləşdirilmişdir. Sadalanan vasitələr Bankın artıq mövcud olan Call-Centre, onlayn konsultasiya, sosial şəbəkələrdə səhifələr kimi kanallarla əməkdaşlarımızın daima müştərilərimizlə yaxından ünsiyyət qurmalarına, onların irad və təkliflərini vaxtında dinləmələrinə, həmçinin onlara keyfiyyətli maliyyə məsləhəti xidməti təqdim edilməsinə şərait yaradır.

TuranBank müasir kart sisteminin ən yeni texnologiyalarından istifadə etməklə, kart sahiblərinin maksimum rahatlıq və təhlükəsizliyinin təmin olunmasına çalışır. Bankımızın təklif etdiyi plastik kartlar dünyanın 200 dən çox ölkəsində yerləşən ödəniş məntəqələrində qəbul olunur.

Qeyd edək ki, TuranBank "Milli Kart" prosessinq mərkəzinin təsisçilərindən və səhmdarlarından biridir. Bankımız, eyni zamanda MasterCard beynəlxalq ödəniş sisteminin üzvü olmaqla respublikada Maestro Cirrus, MaterCard Standard, Mastercard Gold kartlarının emissiyası və dəstəklənməsi üzrə bütün xidmətləri icra edir.

TuranBank plastik kart vasitəsilə "Card to Card" (kartdan karta pul köçürmə), "ATM SMS Notification enrollment" (ATM vasitəsilə SMS məlumatlandırma), "Cash by Code", "Mobil Bank" xidmətlərini müştərilərə təqdim edir. Bununla yanaşı hər il olduğu kimi 2013-cü ildə də TuranBank kart biznesi sahəsində bir sıra yeni xidmətləri müştərilərin istifadəsinə vermişdir. Belə ki, Bankımız "PİN Change" xidmətinə qoşulmuş, kartlardan təhlükəsiz istifadə qaydaları hazırlayaraq müştərilərə təqdim etmişdir. Hesabat ilində Bank, həmçinin plastik kart müştərilərinin Bankın tərəfdaşı olan MasterCard-ın hədiyyəli və eyni zamanda endirimli aksiyalarında iştirakını təmin etmişdir.

Plastik kartlarla aparılan fırıldaqçılıq əməliyyatlarının və müştərilərin pul itkisinin qarşısının alınması üçün Sakit Okean hövzəsi ölkələri, Latın Amerikası və Karib hövzəsi, ABŞ, Cənubi Asiya və Afrika regionlarına daxil 4 qrup regionda əməliyyatların məhdudlaşdırılması üzrə gündəlik limit qoyulmuşdur. Bu məhdudiyyət müştəri istəyi ilə götürülə bilər. Gün ərzində Risk Online Monitorinq proqramı vasitəsi ilə saxta əməliyyatların izlənilməsi həyata keçirilirmişdir.

Nağdsız ödənişlərin artırılması ilə bağlı təsərrüfat subyektlərində POS terminal quraşdırılması davam etdirilmiş, POS terminalla işləyəcək xəzinədarlara Bankımızın əməkdaşları tərəfindən xüsusi təlimlər keçirilmişdir. Hesabat ilində ATM şəbəkəsini genişləndirməyə davam edərək, 2013-cü ilin sonuna Bankın 21 sayda ATM və 210 ədəd POS Terminal şəbəkəsi respublika üzrə Bakı, Gəncə, Sumqayıt, Xaçmaz, Tovuz, Ağstafa, Qazax və Zaqatala şəhərlərini əhatə etmişdir.



**Nimçə**
Azərbaycan, Mis, 19-cu əsr

# MARKETİNQ FƏALİYYƏTİ VƏ İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR



**Tağalaq**
Azərbaycan, Mis, 19-cu əsr

2013-cü ildə TuranBank 21 yaşını qeyd etdi. Bu il, 3-cü onilliyə qədəm qoyan bir Bank üçün çox məsul və uğurlu bir il oldu. 2013-cü ildə Bankın qeyd olunan nailiyyətlərinin əldə olunmasında marketinq fəaliyyətinin əhəmiyyəti də az olmamışdır. Belə ki, Marketinq və Satış strukturu ənənəvi olaraq mütəmadi bazar araşdırmaları həyata keçirmiş, yeni satış bazarlarını araşdırmış, müştəri loyallığını təmin etmək məqsədilə müxtəlif təhlillər apararaq hesabatlar hazırlamış, satışın gücləndirilməsi istiqamətində yeni layihələr hazırlayaraq tətbiq etmiş, müştərilərin tələblərini təmin edəcək məhsul və xidmətlərin yaradılmasında aktiv iştirak etmiş, müştərilərə istiqamətlənən bir sıra stimullaşdırıcı kampaniyalar həyata keçirmişdir.

Hesabat ilində Bank, ölkəmizdə qeyd olunan ayrı-ayrı peşə bayramları günlərində, istisna olmadan bütün peşə sahiblərini sevindirmiş, onlara mövcud kredit faiz dərəcələrindən 3% aşağı faiz dərəcələri tətbiq etməklə istehlak kreditləri təklif etmişdir. Həmçinin 8 mart Beynəlxalq Qadınlar Günü və Novruz Bayramında da müştəriləri sevindirərək endirimli kampaniyalar təqdim olunmuşdur ki, bu da müştəri bazasının genişləndirilməsinə, həmçinin məmnunluq səviyyəsinin qənaətbəxş dərəcədə saxlamağa imkan vermişdir. Ümumilikdə hesabat ilində keçirilmiş aksiyalar üzrə verilən kreditlərin həcmi 6,7 mln. manat təşkil etmişdir.

Yuxarıda qeyd edildiyi kimi 2013-cü ildə Bank özünün 21-ci ildönümünü qeyd edib, 22 yaşına qədəm qoymuşdur. Bankın fəaliyyətinin 21 illiyini müştərilərlə birgə qeyd etmək, 21-ci ildönümdən yararlanmaları üçün müştərilərə şərait yaratmaq məqsədilə Bankda "21-cilər" kampaniyası keçirilmişdir. Kampaniya çərçivəsində 12 iyun – 12 iyul tarixləri arasında əmanət yerləşdirən hər 21-ci əmanətçiyə və hər istehlak krediti alan 21-ci kredit müştərisinə hədiyyə olaraq hesabında 100 AZN məbləğ olan MasterCard Standard plastik kartı təqdim edilmişdir.

Hesabat ilində də əvvəlki illərdə olduğu kimi müştərilərin tələb və təklifləri mütəmadi olaraq araşdırılmış, onların ehtiyacları öyrənilərək yeni məhsul və xidmətlər yaradılmış, mövcud aktiv və passiv məhsullar isə onların ehtiyaclarına müvafiq uyğunlaşdırılmışdır. Bankda yeni Həmrəy Qrup və Fərdi Mikrokredit məhsulları yaradılmış və məhsulların satışının daha aktiv həyata keçirilməsi məqsədilə filiallarda xüsusi Mikrokredit şöbələri fəaliyyətə başlamışdır. İstehlak Krediti məhsulları bazarı və müştərilərin tələbləri qeyd edildiyi kimi araşdırılaraq, məhsulların şərtləri həm birinci, həm də ikinci yarımillikdə daha da sadələşdirilmişdir. Passiv məhsullar bazarı da mütəmadi araşdırılaraq Sirlər Xəzinəsi əmanət məhsullarının şərtləri bazara uyğunlaşdırılmış və həmişə olduğu kimi digər banklarla müqayisədə öz yüksək gəlir həddini qoruyub saxlamışdır.

Kredit ödənişləri üçün hər dəfə Banka gələ bilməyən müştərilərin məmnunluğunu təmin etmək məsdədilə müştərilərin öz kredit ödənişlərini daha rahat və vaxt itirmədən həyata keçirmələri üçün Bankın rəsmi səhifəsində "Kreditlərin onlayn ödənişi" layihəsi təqdim edilmişdir. Bu layihə həm Azəricard PM-nin xidmət göstərdiyi bankların kartları üçün Azəricard MMC ilə, həm də Millikart PM-nin xidmət göstərdiyi bankların kartları üçün GoldenPay şirkəti ilə işlənib hazırlanmışdır. Artıq kredit müştəriləri yerli və xarici bankların Visa və MasterCard kartları, həmçinin Azərpoçt MMC-nin plastik kartlarının köməyi ilə kreditlərini Bankın rəsmi internet səhifəsi ilə yanaşı bir sıra internet portalları vasitəsilə də sutkanın istənilən vaxtında rahatçılıqla ödəyə bilərlər.

Hesabat ilində marketinq fəaliyyəti çərçivəsində plastik kart müştərilərinə istisna qoymayan Bank, MasterCard tərəfindən həyata keçirilən "Master-Cardla alış-veriş edin, övladınız üçün qiymətsiz maskot təcrübəsi qazanın və UEFA Çempionlar Liqası oyununu canlı izləyin!" tirajlı stimullaşdırıcı lotereya kampaniyasına qoşulmuşdur.

Marketinq və Satış strukturunun ilin sonunda həyata keçirdiyi və ilin pik layihəsi sayılan "Muştuluq" kampaniyası əsasən istehlak kredit müştərilərinə istiqamətlənmişdir. Belə ki, bu kampaniya çərçivəsində Kiçik Həcmli İstehlak, Müəllim, Səhiyyə, Hərbçi, Təqaüdçü, Yubiley kreditləri və İstehlak Kredit Kartları məhsullarının şərtləri rəqabətqabiliyyətli formaya salınaraq müvafiq müştəri seqmentinə təklif olunmuşdur. Muştuluq kampaniyası geniş təşviq olunmuş və öz cəlbediciliyi ilə əhali arasında böyük rəğbət qazanmışdır. Kampaniya əsasən müxtəlif yerli radio və regional televiziya kanallarında, internet səhifələrində, sosial şəbəkələrdə, metro qatarlarında və platformalarında, Bankın ATM-lərində, küçə reklam lövhələrində və mənzillərin qapılarına asılqan bukletlərin yerləşdirilməsi ilə həyata keçirilmişdir. Bankın satış həcminin artırılması məqsədilə müxtəlif məhsullar üzrə buklet və broşurlar mütəmadi olaraq çap olunaraq əhali arasında paylanılmışdır.

Təşviqat kampaniyalarının səmərəliliyinin yoxlanılması və gələcəkdə izafi xərclərin qarşısının alınması məqsədilə müştərilər arasında kampaniyalar haqqında məlumat mənbələrinin araşdırılması məqsədilə dövrü sorğular keçirilmiş, hansı növ reklam vasitəsinin daha səmərəli və eyni zamanda müştərilər üçün daha uyğun olması müəyyənləşdirilmişdir.

Hesabat dövründə TuranBankın məhsul və xidmətlərinin, keçirdiyi aksiyaların təbliğində, Korporativ Sosial Məsuliyyət proqramı çərçivəsində Bankın layihələrinin uğurla həyata keçirilməsində, Bankın daha geniş

kütlə arasında müsbət imicinin formalaşdırılmasında və qorunmasında Bank İctimaiyyətlə Əlaqələr kanalından məhsuldar şəkildə yararlanmışdır. Bu zaman istifadə olunan ənənəvi kommunikasiya vasitələri olan mətbuatda, internet-portallarında mətbuat açıqlamalarının, müsabiqə və məqalələrin yerləşdirilməsi ilə yanaşı, Bankın korporativ saytı, sosial şəbəkələrdəki səhifələrinin imkanlarından da geniş istifadə olunmuşdur.

2013-cü ildə Bankın İctimaiyyətlə Əlaqələr istiqamətində gördüyü işlərdən danışarkən, marketinq fəaliyyəti üzrə keçirilən aksiyalara İctimaiyyətlə Əlaqələr sahəsinin göstərdiyi təşviqat dəstəyini xüsusilə qeyd etmək lazımdır. Hesabat dövründə Bank, KİV nümayəndələri ilə əməkdaşlığı daha da genişləndirmiş, onların Bankın maliyyə göstəriciləri, məhsul və xidmətləri ilə bağlı sorğularının vaxtlı-vaxtında cavablandırılması və həmin məlumatların geniş oxucu kütləsinə çatdırılması təmin olunmuşdur. Bankın fəaliyyətinin məlumat dəstəyi son nəticədə Bankın satış həcminin artırılmasında nəzərəçarpacaq rol oynamışdır.

Bankın hesabat ilində hazırlayaraq həyata keçirdiyi uğurlu layihələr sırasında Bankın rəsmi facebook səhifəsinin izləyicilərinin sayını artırmaqla onu müştərilərlə səmərəli komunikasiya vasitəsinə çevirmək məqsədini daşıyan "Dostunu dəvət et, 100 AZN mədaxil edilmiş Master-Card qazan!" adlı stimullaşdırıcı kampaniyanı qeyd etmək yerinə düşər. Uğurla başa çatdırılmış bu aksiya nəticəsində Bankın facebook sosial şəbəkədəki səhifəsi üzrə izləyicilərin sayı 8 min nəfər artmışdır.

2013-cü ildə Bankın facebook, twitter, linkedin, disput və digər sosial şəbəkələrdəki səhifələrinin işi canlandırılmış, Bankın məhsul, xidmət, filial şəbəkəsi və aksiyaları haqqında məlumatların bu şəbəkələrdə yerləşdirilməsi tezliyi artırılmış, mövcud və potensial müştərilərin sual, rəy, təklif və şikayətləri vaxtlı-vaxtında cavablandırılmışdır. Bir sözlə, müştəri məmunluğunun təmin olunması istiqamətində bir çox zəruri tədbirlər görülmüşdür.

Hazırda sürətli texnoloji inkişaf fonunda məsafədən xidmət göstərilməsi aktual mövzulardan hesab olunur. Bu istiqamətdə Bank, daim yeniliklərin tətbiqi və bununla da müştərilərin ehtiyaclarına uyğun yüksək keyfiyyətli xidmətin göstərilməsini prioritet hesab edir. Bu sahədə Bankda qurulan alternativ kanalların rolunu xüsusilə qeyd etmək lazımdır. Belə ki, hesabat ilində Banka Call Centre vasitəsilə edilən zənglərin sayı 17,578 olmuş, MilliÖn ödəniş terminalları vasitəsilə 20,746 sayda 3,3 mln. manat məbləğində kredit ödənişi həyata keçirilmiş, 416 sayda on-line kredit sifariş qəbul edilmiş, facebook səhifəsi vasitəsilə 400-dək sorğu cavablandırılmış, vebsaytlar vasitəsilə 940 sayda 349,375 manat məbləğində on-line kredit ödənişləri reallaşdırılmışdır.

KİV ilə əməkdaşlığa gəlincə isə, ötən il Bankın yuxarı menecmentinin müsahibələri, məqalələri və təşviqat aksiyaları populyar internet xəbər portalları olan trend.az, lent.az, 1news.az, Day.az saytlarında, iqtisadi dərgilərdən Consulting & Business, eləcə də Zerkalo və İqtisadiyyat qəzetlərində dərc olunmuşdur. Hesabat dövrü ərzində Bankın fəaliyyətini özündə əks etdirən xəbərlər istər onlayn informasiya vasitələrində, istərsə də mətbuatda geniş yer almış və nəticədə TuranBank Azərbaycanın xəbər portallarında adı ən çox hallanan bankların siyahısına daxil olmuşdur.



**Gülabdan**
Azərbaycan, Melxior, 20-ci əsrin əvvəli

# KORPORATİV İDARƏETMƏ VƏ SOSİAL MƏSULİYYƏT

Korporativ idarəetmə - biznesin təşkilati-hüquqi formasının idarə olunması, təşkilati srukturların optimallaşdırılması, qəbul olunmuş məqsədlərə müvafiq olaraq cəmiyyətlərarası və cəmiyyətdaxili münasibətlərin düzgün qurulmasıdır. Belə ki, korporativ idarəetmə strukturu şəffaf və işlək bazarları təşviq etməli, hüquq normaları ilə uyğun olmalı və müxtəlif nəzarət, tənzimləyici və icraedici orqanlar arasında məsuliyyətin aydın şəkildə bölüşdürülməsini təmin etməlidir.

Korporativ idarəetmə strukturu səhmdarlara, o cümlədən azlıq təşkil edən və xarici səhmdarlara eyni münasibət bəslənməsini təmin etməlidir. Bütün səhmdarlar onların hüquqları pozulduğu halda onları bərpa etmək imkanına malik olmalıdır ki, mövcud və yeni səhmdarlar tərəfindən investisiyalar qoyulmasına maraq artsın.

Başqa sözlə korporativ idarəetmə - mülkiyyətçilərin, yeni səhmdarların, komandanın və cəmiyyətin maraqları çərçivəsində şirkətin işinin təmin olunmasıdır ki, TuranBank da bu siyasəti rəhbər tutur. Göründüyü kimi korporativ idarəetmə sadəcə prosedur və qaydalardan ibarət deyil. Bu, idarəetməyə fərqli baxış- öz maraqlarını digərlərinin maraqlarında görmək bacarığıdır. Dolayısı ilə şəxsin öz maraqları çərçivəsində çıxış etməməsidir ki, Bank da buna böyük önəm verir.

Hesabat ilində ən önəmli məsələ Banka xarici investiya cəlb olunması olmuşdur. Belə ki, Amerika Birləşmiş Ştatlarında idarə olunan ShoreCap II LTD Fondu bankın səhmdarları sırasına daxil olmuşdur. Həmçinin, 2013-cü ildə Bankda çox mühüm hadisə baş vermiş – Bankın Müşahidə Şurasına 1 nəfər müstəqil üzv təyin olunmuşdur ki, bu da korporativ idarəetmə sisteminin əsas tələblərindən biridir.



**Hamam tası**
Azərbaycan, Mis, 19-cu əsr

Qeyd etmək lazımdır ki, hesabat ilində Azərbaycan Respublikasının Mərkəzi Bankının "Banklarda Korporativ İdarəetmə standartları" təsdiq olunmuşdur. TuranBank qeyd olunan standartları rəhbər tutaraq bank-daxili təlimatlarına bir çox əlavə və dəyişiklər etmişdir. Belə ki, Bankda Mükafatlandırma və İnsan Resurslarının İdarəedilməsi Komitəsi yaradılmış, Risklərin İdarəedilməsi komitəsinin və digər bankdaxili komitələrin əsasnamələri və tərkibləri yeni standartın tələblərinə uyğunlaşdırılmışdır. Həmçinin Bankın Korporativ İdarəetmə Məcəlləsinə, Məlumatların Açıqlanması siyasətinə əsaslı əlavə və dəyişikliklər edilmişdir.

Ümumiyyətlə Bankın ali qərarverici orqanı olan Səhmdarların Ümumi Yığıncağının 2013-cü ildə 5 iclası keçirilmişdir. Bütün yığıncaqlarda yetərsay əldə olunmuşdur. Yığıncaqlarda Bankın səhmləri ilə əlaqədar bütün əməliyyatlar, o cümlədən mənfəətin bölüşdürülməsi, hesabatların təsdiq olunması, nizamnamə kapitalının artırılması, səhmlərin buraxılması barədə bir çox qərarlar qəbul olunmuşdur.

Həmçinin onu da qeyd edək ki, ötən illərdə olduğu kimi hesabat ilində də Bankın korporativ idarəetmə sisteminin qabaqcıl və dayanaqlı inkişafı ilə əlaqədar olaraq Bank bir sıra beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq əlaqələrini genişləndirmişdir.

Hesabat ilində Bankın dinamik inkişafı, qarşısına qoyduğu vəzifələrin öhdəsindən şücaətlə gəlməsi bankda korporativ idarəetmənin stabil inkişafından və bu sahədə olan qabaqcıl tələblərə cavab verməsindən xəbər verir.

TuranBank üçün korporativ sosial məsuliyyət (KSM) etik dəyərlər, işçilərə, cəmiyyətə və ətraf mühitə hörmət əsasında fəaliyyətinin açıq və şəffaf tərzdə gerçəkləşdirilməsi deməkdir və daha qlobal olaraq korporativ idarəetmə mədəniyyətimizin tərkib hissəsidir. Cəmiyyət qarşısında məsuliyyətlilik mövqeyinə malik olan Bankımız anlayır ki, onun uğuru cəmiyyətin sağlamlığı və rifahı ilə birbaşa bağlıdır. Buna görə də biz işçilərimizə, müştərilərimizə, ümumilikdə cəmiyyətə və ətraf mühitə qarşı münasibətlərimizdə onlar qarşısında daşıdığımız məsuliyyəti başa düşür və bunu davamlı inkişafın çox vacib elmentlərindən biri kimi dəyərləndiririk.

Bank, hesabat ilində cəmiyyət qarşısında sosial məsuliyyətlilik dəyərlərinə ciddi önəm verdiyini həyata keçirdiyi müxtəlif sosial, humanitar, mədəni və idmanla bağlı layihələri ilə bir daha sübut etmişdir. Korporativ sosial məsuliyyət proqramı çərçivəsində Bank, Azərbaycan Risk Peşəkarları Assosiasiyasının (ARPA) təşkilatçılığı ilə tələbələrin təhsili və inkişafına istiqamətlənmiş Tələbə Proqramı layihəsinin baş sponsoru olmuşdur. Eyni zamanda, regional idman mərkəzləri olan Göyəzən Futbol Klubu və Göyəzən Güləş Məktəbinə, həmçinin Qazax şəhərində keçirilən və Ümummilli Lider Heydər Əliyevin 90 illik Yubileyinə həsr olunmuş yeniyetmələrarası açıq güləş turnirinə sponsorluq etməklə Bankımız yeniyetmə və gənc nəslin idman sahəsinə olan marağını dəstəkləmişdir.

Bankın KSM sahəsində həyata keçirdiyi humanitar layihələrinə 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə uşaq evinə ziyarət və oranın balaca sakinlərinin kukla teatrına səfərinin təşkili, Qurban bayramı münasibətilə uşaq evinə qurbanlıq ətin və ərzaq məshullarının hədiyyə

olunmasını misal göstərmək olar. Məktəblilər arasında 20 noyabr - Ümumdünya Uşaq Gününə həsr olunmuş "Azərbaycanın tarixi abidələri uşaqların gözü ilə" adlı rəsm müsabiqəsinin keçirilməsində isə Bankın əsas məqsədi böyüməkdə olan nəslin vətənimizin qədim tarixi abidələri haqda biliklərini daha da genişləndirmək, eyni zamanda rəsm sahəsində istedadlı uşaqları üzə çıxarmaq və onlara dəstək olmaq idi. Müsabiqənin qaliblərinin çəkdiyi rəsmlər Bankın korporativ təqviminin tərtibatında istifadə olunmuşdur.

Hər il olduğu kimi 2013-cü ildə də Bank öz ənənəsinə sadiq qalaraq istər xaricdə, istərsə də ölkəmizdə təhsil almış məzunlar, tələbələr üçün Azərbaycan Dövlət İqtisad Universitetində keçirilən "Məzun-2013" adlı əmək yarmarkasında, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Bakı şəhəri Məşğulluq İdarəsi və Memarlıq və İnşaat Universitetinin Karyera Planlama Mərkəzinin "Karyerada ilk addım" devizi altında keçirdiyi əmək yarmarkalarında iştirak etməklə təhsillərini müvəffəqiyyətlə başa vurmuş maliyyə-iqtisad yönümlü gənc məzunların Bankımızda işlə təmin edilməsində və gələcək karyeralarının inkişafinda yaxından iştirak etmişdir.

Ali təhsil müəssisələrinə qəbul imtahanlarında yüksək bal toplamış və prezident təqaüdünə layiq görülmüş tələbələrlə Bank rəhbərliyinin görüşü və onların mükafatlandırılması, əlaçı tələbələr üçün təcrübə proqramlarının həyata keçirilməsi - bütün bu həvəsləndirici addımlar gənclərə təhsilin gələcək karyera üçün mühüm əhəmiyyət kəsb etdiyini aşılamaq məqsədini güdmüşdür.

Hesabat dövründə Bank tərəfindən Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələri qarşısında "Bankda Risklər", "Risklərin İdarəedilməsi" mövzularında təşkil olunan seminarlarda Bankın risk peşəkarları maliyyə qurumlarının fəaliyyətləri zamanı üzləşdiyi risklər, onların müəyyənləşdirilməsi alətləri, təhlili, idarə edilməsinin təşkili və risklərlə bağlı digər məsələləri əhatə edən geniş mühazirələr ilə çıxış etmişlər. Bu seminarların əsas məqsədi iqtisadi sahədə təhsil alan tələbələrin bank sahəsinə olan maraqlarını, həmçinin bilik və bacarıqlarını daha da artırmaq olmuşdur.

Bank öz fəaliyyətində ətraf mühitin qorunması, ekoloji məsələləri daim diqqət mərkəzində saxlamaqdadır. Buna misal olaraq, kağızlardan ikitərəfli çap rejimində istifadə olunmasını və işlənmiş tullantı kağızlarının təkrar istehsala verilməsi məqsədilə toplanaraq müvafiq strukturlara təhvil verilməsini göstərmək olar.

Diqqət çəkən məqamlardan biri də Bankımızın kreditləşmə fəaliyyətində yalnız yüksək ekoloji və sosial əhəmiyyətli layihələrin, eyni zamanda ümumi kreditləşmə fəaliyyətində qərarların qəbulu zamanı ekoloji risklərin minimuma endirilməsinə çalışmasıdır.

Bizim üçün KSM, eyni vaxtda Bank əməkdaşlarının və onların ailələrinin rifahının yaxşılaşdırılmasıdır. Hesabat ilində bu istiqamətdə həyata keçirilən tədbirlər çərçivəsində yüksək ixtisaslı mütəxəssislərin Banka cəlb edilməsi və onlara uzunmüddətli məşğulluq imkanlarının yaradılması, işçilərin əməyinin sərfiyyata müvafiq ödənişi və stimullarşdırılması, peşəkarlıq səviyyələrinin artırılması, qabaqcıl təcrübələrin mənimsənilməsi və Bankda tətbiq edilməsi üçün onların mütəmadi yerli və xarici təlimlərdə iştirakının təmin edilməsini xüsusi qeyd etmək lazımdır.

Bankın əməkdaşlarının asudə vaxtlarının təşkili, onların ailə üzvlərinin dəstəklənməsi də diqqətdən kənar qalmamışdır. Bu xüsusilə hesabat ilində Bankın işçi heyətinin Xalq yazıçısı Çingiz Abdullayevlə görüşü, əməkdaşlarımızdan ibarət komandanın Bakı Banklararası Valyuta Birjasının təşkil etdiyi banklararası və 31 dekabrı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə keçirilən futzal turnirlərində iştirakı ilə yadda qalmışdır.

Sonda bir daha bildirmək istərdik ki, Bankda KSM proqramları bütövlükdə cəmiyyətin sosial tələbatları və dövlətin maraqları nəzərə alınmaqla qurulur və həyata keçirilir.



**Xınadan**
Azərbaijan, Mis, 20-ci əsrin sonu

# RİSKLƏRİN İDARƏEDİLMƏSİ

Risklərin səmərəli idarə edilməsi və minimallaşdırılması Bankın mahiyyət etibarilə əsas vəzifəsi hesab olunur. Bankda risklərin idarə edilməsi sisteminin qurulması zamanı Mərkəzi Bankın tövsiyyələri, həmçinin Bank nəzarəti və tənzimlənməsi üzrə Bazel Komitəsinin tövsiyyələri nəzərə alınır. 2013-cü ildə Bankın uğurla irəliləməsini təmin etmək üçün, Bankın fəaliyyətində əhəmiyyət kəsb edən risk sahələri (kredit riskləri, likvidlik riskləri, valyuta riskləri, əməliyyat riskləri) üzrə mühüm işlər görülmüşdür. Hesabat dövrü ərzində Bank, risklərin idarə edilməsi sahəsini təkmilləşdirmiş, eyni zamanda likvidliyini məqbul səviyyədə saxlamaqla banklarda kapitallaşma prosesi fonunda yüksək kapitallaşmaqla baş verə biləcək şoklara qarşı dayanıqlığını yüksəltmişdir. Bankın Risk Siyasəti və prosedurları bazar şərtləri, nəzarət mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə yenidən hazırlanmışdır. Siyasət Bankın bu sahədə strateji baxışlarını özündə ehtiva edir. Paralel olaraq Bazar, Likvidlik, Kredit, Əməliyyat və İnformasiya texnologiyaları risklərinin idarə edilməsi üzrə bankdaxili qaydalar yenilənmişdir.

**Risk funskiyası –** Risklərin idarə edilməsi funksiyasının məqsədi risk və gəlirlilik arasında müvafiq balansın təmin edilməsi və Bankın fəaliyyətinə mümkün mənfi təsiri azaltmaqdan ibarət olmuşdur. Bankın riskləri idarəetmə siyasətinin və yanaşmalarının məqsədi Bankın məruz qaldığı risklərin müəyyənləşdirilməsi, təhlil edilməsi, azaldılması istiqamətində idarə edilməsindən ibarətdir. Bu risk səviyyəsi üzrə müvafiq limitlərin və nəzarət mexanizmlərinin yaradılması, risk səviyyələrinin müntəzəm monitorinqi, limitlər və bankdaxili prosedurlara riayət edilməsi vasitəsilə həyata keçirilir.

**Kredit riskləri –** Bankın aktivlərinin mühüm hissəsini kredit portfeli təşkil etdiyi üçün bu sahəyə xüsusi diqqət ayrılmışdır. Belə ki, kredit risklərinin minimuma endirilməsi üçün



**Tövbə qabı**
Azərbaycan, Mis, 19-cu əsr

bu prosesdə Bankın müxtəlif struktur bölmələrinin birgə fəaliyyəti təmin edilmişdir. Bu sahədə risklərin idarə edilməsi baxımından idarəetmə kreditin verilməsindən əvvəlki (müştərinin ilkin analizi) və sonrakı (kredit portfelinə nəzarət) təhlil əsasında iki mərhələdə qurulmuşdur.

Bankın kredit siyasəti vasitəsilə portfelin idarəolunan diversifikasiyasını aparmaq üçün limitlər sistemindən istifadə edilir və müvafiq limitlərə müntəzəm olaraq yenidən baxılır. Kredit riskləri üzrə bütün məsələlər, o cümlədən limitlərə uyğunluq, risklər üzrə konsentrasiyalar, portfel tendensiyaları, vaxtı keçmiş kreditlər üzrə statistika müntəzəm olaraq izlənilir. Kredit risklərinin idarə edilməsi metodlarının səmərəli tətbiqi sayəsində Bankın kredit portfelini yüksək keyfiyyətdə saxlamaq mümkün olmuşdur. Belə ki, dövr ərzində mütəmadi olaraq monitorinqlər keçirilmiş, problemli borcalanlarla intensiv iş qurulmuşdur.

Bank əvvəlki illərdə olduğu kimi, cari ildə də kredit riskləri sahəsində Beynəlxalq Maliyyə Korporasiyası ilə sıx əməkdaşlıq etmişdir və hesabat ilində bunların nəticəsi olaraq kredit risklərinin idarə edilməsi işinin təkmilləşdirilməsi istiqamətində kiçik və orta biznes müştərilərinin kredit müraciətlərinin dəyərləndirilməsi məqsədilə Risk Reytinq Sistemi hazırlamışdır. Qeyd edilən sistemin təkmilləşdirilməsi və eyni zamanda tətbiqi üzərindən proseslər davam etdirilir.

Həmçinin hesabat ili ərzində Beynəlxalq Maliyyə Korporasiyası (IFC) ekspertinin Portfelin idarə edilməsi istiqamətində etdiyi tövsiyələrə uyğun olaraq Vintaj Analiz, Risk Əsaslı Konsentrasiya və "Roll Rate" kredit analizləri aparılmışdır.

**Bazar riskləri** - Bank bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta üzrə açıq mövqelərlə əlaqədar bazar risklərini daim nəzarətdə saxlayır. Bank bazar risklərinə məruzluğunu və eləcə də həmin risklərlə bağlı mövqeyini mütəmadi olaraq qiymətləndirməklə tənzimləyir. Hesabat dövrü ərzində Bankda faiz və likvidlik riskləri üzrə beynəlxalq təcrübəyə əsaslanan yeni stress testlər hazırlanmışdır. Bankın aktivləri üzrə "Hair Cut" və həmçinin öhdəlikləri üzrə "Run Off" faiz dərəcələri hesablanaraq likvidlik riski üçün yeni stress testlər keçirilmişdir. Eyni zamanda, Aktiv və Öhdəliklərin orta faiz dərəcələri hesablanaraq və onlar üzərində ssenarilər qurularaq faiz riskləri üzrə yeni stress test hazırlanmış və tətbiqinə başlanmışdır.

**Valyuta riskləri** - Bankın valyuta risk siyasətinin əsas elementi hər bir valyuta üzrə aktiv və öhdəliklərini uzlaşdırmaqdan ibarətdir. Valyuta risklərinin minimallaşdırılması üçün Mərkəzi Bankın müvafiq qaydalarına əsasən AVM (açıq valyuta mövqeyi – xarici valyutada olan tələb və öhdəliklər arasında fərq) üzrə limitlər müəyyən olunmuş və bu limitlərin pozulmamasına gündəlik olaraq nəzarət edilir. Eyni zamanda mütəmadi olaraq stress testlər aparılmaqla etimal risklər qiymətləndirilir.

**Faiz riskləri** - Bank faizə həssas aktiv və öhdəliklər üzrə mövqeyini qarşılıqlı uyğunlaşdırmaqla tənzimləyir. Bank faiz marjasının normal səviyyəsinin qorunmasına nəzarət edir. Faiz dərəcələrinin tənzimlənməsi məqsədilə müntəzəm olaraq aktiv/öhdəliklərin faiz dərəcələrinə yenidən baxılır. Bank faiz dərəcələrinin dəyişməsinin qəbul oluna bilən səviyyəsi üzrə limitlər müəyyən edir və müvafiq limitlərə nəzarət edilir.

**Likvidlik riskləri** - Maliyyə böhranının qismən sovuşduğu dövrlərdə Bank öhdəliklərini vaxtında və tam yerinə yetirmişdir. Bankın likvidlik riski siyasətinin əsas elementləri aktivlər və öhdəliklərin müddətlər üzrə uyğunlaşdırılması, likvidliyin təmin edilməsi üçün likvid aktivlərin səviyyəsinin saxlanması, maliyyələşmə mənbələrinin diversifikasiyasıdır. Bankın 2013-cü il üçün likvidlik əmsalı üzrə göstəriciləri daima məqbul səviyyədə olmuşdur. Bir sıra indikatorlar, əmsallar, limitlər vasitəsilə likvidliyə daimi nəzarət edilir.

**Əməliyyat riskləri** - Əməliyyat risklərinin səviyyəsinin aşağı salınması məqsədilə Bank əməliyyat riski yaradan faktorları müəyyən edir, daxili nəzarət sistemlərini təkmilləşdirir və müntəzəm monitorinqlər həyata keçirir. İdarəetmə obyekti kimi Bankın biznes prosesləri çıxış edir. Əsas diqqət yeni məhsul və xidmət çeşidləri, hesablaşmalar, informasiya texnologiyaları, səlahiyyət bölgüsü, bankdaxili prosedurların adekvatlığı və s. istiqamətlərə yönəlmişdir.

Bank əməliyyat risklərinin idarə edilməsinə daim önəm vermiş və bu məqsədlə metod olaraq Özünü Qiymətləndirmə anketləri hazırlanmışdır. Özünü qiymətləndirmə anketi insan resursları üzrə riskləri, proses risklərini, avtomatlaşdırılmış bank sistemi risklərini, hesablaşma və köçürmə sistemləri üzrə riskləri, avadanlıq və proqram təminatı və eləcədə şəbəkə və rabitə üzrə riskləri özündə ehtiva etmişdir.

Eyni zamanda, bu dövr ərzində, Bankın Risk Xəritəsinə yenidən baxılmış və risklər əhəmiyyətliliyinə və vura biləcəyi zərərə görə qruplaşdırılmış, Fövqaladə Hallarda Biznesin Davamlılığı Planı hazırlanmışdır.

Qeyd olunan risklərin idarə edilməsi Mərkəzi Bankın normativ sənədlərinə və bankdaxili qaydalara uyğun aparılır. Hər bir risk profili üzrə müntəzəm olaraq "Stress test"lər aparılır və nəticələr Risklərin İdarə Edilməsi Komitəsində müzakirə olunur. Stress test risklərin kəmiyyət ölçüsü metodlarından biri olub, xarici faktorların (valyuta məzənnəsi, faiz dərəcələri və s.) şok dəyişməsi nəticəsində riskə açıq mövqelər üzrə gözlənilən zərərin hesablanmasıdır. Bank müntəzəm qaydada müxtəlif ssenarilər üzrə kredit, likvidlik və bazar riskləri üzrə stress testlər aparır.

Erkən xəbərdarlıq sistemi vasitəsilə bank fəaliyyətində istifadə olunan müxtəlif əmsalların müəyyən edilmiş limitlərə yaxınlaşması nəticəsində yarana biləcək risklər barədə rəhbərliyə operativ məlumat verilir və müvafiq prudensial tədbirlər görülür.

Görülən işlərlə paralel, Bank daima risklərin idarə edilməsi sistemini inkişaf etdirir və təkmilləşdirir. Bunun nəticəsi olaraq kredit portfelinin keyfiyyəti uyğun səviyyədə qorunub saxlanmış və digər əməliyyat sahələrində də hesabat ili itkisiz başa vurulmuşdur.

Dəyişkən bazar fonunda bu sahənin inkişafı daim Bankın diqqət mərkəzində qalmaqda davam edəcəkdir.



**Nimçə**
Azərbaycan, Mis, 19-cu əsrin sonu

Ədviyyat qabları
Azərbaycan, Mis, 19-cu əsrin ortaları



# ÇİRKLİ PULLARIN YUYULMASI VƏ TERORİZMİN MALİYYƏLƏŞDİRİLMƏSİNƏ QARŞI GÖRÜLƏN TƏDBİRLƏR

Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması (ÇPY/TMM) sahəsində dövlət siyasətini həyata keçirən, bu sahədə nəzarət sistemini təkmilləşdirən və aidiyyəti dövlət orqanlarının fəaliyyətini əlaqələndirən orqan Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidmətidir.

Hesabat ilində Bankda Çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində fəaliyyət Azərbaycan Respublikasının Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunu, Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinq Xidmətinin əmr və qərarları, Avropa Şurasının Pulların Yuyulması və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun (FATF) və Maliyyə Kəşfiyyatı Orqanlarının ixtisaslaşmış qurumu – Eqmont Qrupunun tövsiyyə və qərarları bazasında aparılmışdır.

Əvvəlki illərdə ÇPY/TMM üzrə risklər əhəmiyyətlilik baxımından ölkə, müştəri, məbləğ və məhsul riski kimi təsnifləşdirilərək risk kateqoriyaları hazırlanmışdır. Hazırlanmış olan risk kateqoriyaları hesabat ilində avtomatlaşdırılmış bank sistemində tətbiq olunmağa başlamış yeni müştəri xidmətləri modulunda istifadə edilmişdir. Belə ki, müştərilər bu kateqoriya əsasında aşağı, orta və yüksək riskli müştərilər kimi təsnifləşdirilmişdir.

Bu dövr ərzində ÇPY/TMM istiqamətində bankdaxili təlimlərin sayı artırılmışdır. Müştəri Xidməti Strukturlarında çalışan əməliyyatçıların ÇPY/TMM üzrə bilikləri elektron poçt, eyni zamanda birbaşa təlimlər vasitəsi ilə artırılmışdır. ÇPY/TMM sahəsi üzrə biliklərinin artırılması məqsədi ilə həm əməliyyat, eyni zamanda risklərin idarə edilməsi strukturları tərəfindən mütəmadi təlimlər keçirilmişdir.

Hesabat ilində Bankın Risklərin İdarə Edilməsi strukturu tərəfindən mütəmadi əməkdaşlıq etməyən ölkələrin siyahısı (Qara Siyahı), barələrində sanksiyalar tətbiq edilməli olan fiziki və ya hüquqi şəxslərin ölkədaxili siyahısı və məhşur ofşor zonaların siyahıları müştəri xidməti strukturlarına təqdim edilmişdir. Bu şəkildə qeyd olunan siyahılar dəyişdiyi zaman müştəri xidməti strukturlarındakı siyahılar da anında yenilənmişdir.

Bunların xaricində hesabat ilinin oktyabr ayında Maliyyə Monitorinqi Xidməti tərəfindən "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (PL/TMM) sahəsində qanunvericiliklə nəzərdə tutulmuş vəzifə və öhdəliklər, məlumatların keyfiyyətinin yüksəldilməsi məqsədilə həyata keçirilməli olan tədbirlər, şübhəli məlumatların aşkar edilməsi üsulları" mövzusunda Bankın satış strukturları üzrə  ümumilikdə 30 nəfər əməliyyatçı bu təlimdə iştirak etmişlər.

# İNFORMASİYA TEXNOLOGİYALARI

20-ci əsrin əvvələrində gələcəkdə dünyada bütün sahələrdə istifadə ediləcək, bütün proseslərdə böyük yükləri üzərinə götürəcək qurğular yaradılmışdır. Bu qurğular ilk nəsil kompüterlər idi. Kompüterlər XX əsrin sonları XXI əsrin əvvəllərində artıq bütün sahələrdə istifadə olunmağa başladı. Bir zamanlar informasiyanın uzaq məsafələrə ötürülməsi üçün günlərlə, aylarla vaxt lazım olurdusa, artıq XX əsrdə baş vermiş inkişaf informasiyanın ötürülməsi üçün elə bir şərait yaratdı ki, artıq hər hansı bir informasiya saniyələrlə ölçülə biləcək zaman ərzində olduqca uzaq məsafələrə ötürülə bildi. Artıq kağız daşıyıcılarına yazılarsa minlərlə kvadrat kilometr sahəni əlatə edə biləcək informasiyanı bir otaq daxilində olan avadanlıqlarda saxlamaq mümkün oldu. Olduqca böyük bir informasiyanın emalı üçün saniyələr yetərli oldu. Çağdaş dövrümüzdə informasiya texnologiyalarının inkişafı öz aktuallığı ilə seçilir.

Bu gün ölkəmizdə informasiya texnologiyalarının sürətli inkişaf tempi hiss olunmaqdadır. 2013-cü ildə Azərbaycanın ilk milli peykinin orbitə çıxarılması bu nailiyyətlərdən bəlkə də ən yadda qalanıdır. Həmçinin ölkədə minlərlə kilometr uzunluqda fiber-optik xətlərin çəkilməsi, bütün dövlət strukturlarında informasiya texnologiyalarının tətbiqinin genişləndirilməsi, elektron hökumət və imzanın yaradılması, eləcə də tətbiqi bu inkişafın daha bir indikatorudur. Ölkədə bu cür inkişaf bütün müəssisə və şirkətlər üçün qeyd olunan sahənin inkişafını olduqca vacib etmişdir. Buna uyğun olaraq artıq bir neçə ildir ki, TuranBank da bu sahənin inkişafı istiqamətində irəliləməkdədir. 2013-cü ildə Bankın bu sahəyə qoyulan investisiyaları



**Kasa**
Azərbaycan, Mis, 18-ci əsr

artırılmış, yeni sistemlər yaradılmışdır. Qoyulan investisiyalar infrastrukturun gücləndirilməsinə, təkmilləşdirilməsinə, yeni sistemlərin, o cümlədən müştərilərə Banka gəlmədən xidmət göstərilməsinin təmin edilməsinə yönəldilmişdir. İnfrastrukturun gücləndirilməsi çərçivəsində Bankın daha dörd sayda filialı fiber-optik xətlər vasitəsilə yüksək sürətli rabitə imkanı ilə təmin edilmiş, valyuta dəyişmə şöbələri ilə Bankın Baş ofisi arasında rabitə xətlərinin çəkilməsi və bu şöbələr üçün yeni proqram təminatının tətbiqi ilə şöbələrin onlayn rejimdə işi təşkil edilmiş, server avadanlıqlarının emal gücü müştəri artımına uyğun olaraq artırılmış, təmir edilən filiallar daxilində standartlara uyğun şəkildə informasiya texnologiyaları infrastrukturu yaradılmışdır. Həmçinin qeyd etmək lazımdır ki, bankdaxili telefon şəbəkəsinin imkanları da artırılmışdır. Təkmilləşdirmə istiqamətində isə Mərkəzi Bankın tələblərinə uyğun olaraq IBAN hesablar sistemi tətbiq edilmişdir. İnformasiyanın əlçatanlığının yüksəldilməsi məqsədilə yeni elektron arxiv sistemi yaradılmışdır. Bank daxilində İT üzrə xidmətin İTİL standartlarına uyğunlaşdırılması üzrə mühüm işlər görülmüşdür. Monex təcili pul köçürmə sisteminə qoşulma təmin edilmişdir. Müştərilərə Banka gəlmədən xidmətlərin göstərilməsi istiqamətində isə daha əsaslı bir iş görülmüş, belə ki, internet üzərindən plastik kartlar vasitəsilə kredit borclarının ödənilməsi sistemi işə salınaraq müştərilərin istifadəsinə verilmişdir. Bu sistem vasitəsilə müştərilər ölkə daxilində olan istənilən banka məxsus olan plastik kartlar və ya MasterCard sisteminə üzv olmaq şərtilə ölkə xaricində olan istənilən bankın plastik kartları vasitəsilə TuranBanka olan kredit borclarını Banka gəlmədən internet üzərindən ödəyə bilərlər.

Qeyd etmək istərdik ki, elektron təhlükəsizlik və ümumilikdə informasiya təhlükəsizliyi sahəsi istiqaməti də Bank üçün əsas istiqamətlərdən hesab edilir. Bunun nəticəsidir ki, bu günədək Bankda informasiya təhlükəsizliyi ilə bağlı hər hansı insident baş verməmişdir. Bu isə Bankın istənilən müştərisinin etibarını qorumaq gücündə olmasının daha bir göstəricisidir.

Yuxarıda sadaladığımız layihələrdən əlavə Bank daxilində bir çox işlər görülmüş və 2014-cü ildə də daha geniş layihələr həyata keçirilməsi planlaşdırılır. Gördüyümüz istənilən iş müştərilərin maraqlarının qorunması, şəffaflıq, etibarlılıq kimi vacib prinsiplərimizi təmin etmək, müştərilər və Bank arasında əməkdaşlığın gücləndirilməsinə xidmət edir. Növbəti illərdə də texnologiyalar vasitəsilə xidmətlərimizi artırmaq və zənginləşdirməklə müştəriləri bir daha əmin edəcəyik ki, bizimlə etibarlıdır.

2014-ci ildə də Bankda informasiya texnologiyaları sahəsinin inkişafı üçün kifayət qədər işlərin icra edilməsi planlaşdırılmışdır. Xüsusilə infrastrukturun daha da gücləndirilməsi, Baş ofislə əksər filiallar arasında olan rabitənin fiber-optk kabellər üzərindən həyata keçirilməsi, istifadə olunan bankçılıq proqramının avtomatlaşma və nəzarət istiqamətli müasir tələblərə cavab verməsinin təmin olunması, bütün rabitə kanalları ilə ötürülən informasiyanın şifrələnməsində əlavə təhlükəsizlik sistemlərinin tətbiqi, müştərilərə Banka gəlmədən və daha müasir bank xidmətlərinin təşkili bütövlükdə informasiya təhlükəsizliyi əsas prioritetlər hesab olunur. 2014-cü il ərzində bu tipli layihələrin tətbiqi, müştərilərə xidmət keyfiyyətinin və xidmət formalarının arıtırılması, informasiya təhlükəsizliyinin daha da gücləndirilməsi Bankın "Bizimlə etibarlıdır" sloqanını bir daha təsdiq edəcəkdir.

# İNSAN RESURSLARI

Bank, İnsan resurslarının idarə edilməsi sahəsində hər ildə olduğu kimi, ötən 2013-cü ilə də öz yeniliklərilə imza atmışdır.

2013-cü ildə İRİE siyasətinə yenidən baxılmış və zamanın tələblərinə cavab verən bölümlər əlavə edilərək hazırlanmışdır. Həmçinin işçilərin inkişaf mərhələlərini özündə əks etdirən, bankdaxili ehtiyat kadrların hazırlanmasını tənzimləyən "Karyera inkişaf sistemi" Qaydaları təkmilləşdirilmişdir.

Hesabat ilinin sonuna Bankda 346 nəfər işçi çalışmışdır ki, onların da 74 nəfəri 2013-cü ildə işə qəbul olunmuşlar. Bu istiqamətdə xüsusi diqqət müştəri xidməti strukturlarına verilmişdir ki, bu da Banka yeni müştərilərin cəlbi, mövcud müştəri potensialının qorunub saxlanması və onlara daha operativ xidmətin göstərilməsinə xidmət etmişdir.

Bankın missiya bəyannaməsinə əsasən əməkdaşlarımızın hərtərəfli inkişafı, onların ehtiyacları rəhbərlik tərəfindən hər zaman müsbət qarşılanır. İşçilərin karyera inkişaf yolunu özündə əks etdirən "fərdi karyera planları"na əsasən il ərzində 140 nəfər Bank əməkdaşında vəzifə artımları həyata keçirilmişdir. Digər işçilərin əmək haqqları isə illik fəaliyyət qiymətləndirməsinə uyğun artırılmışdır. Fərdi karyera planına əsasən işçilərin treninqə olan tələbatını müəyyən edən elektron baza yaradılmış və ilin əvvəlindən qeyd olunan mövzular üzrə treninqlərin təşkilinə başlanmışdır.

2013-cü il İnsan Resursları sahəsi bankdaxili və korporativ treninqlərin keçirilməsi, sosial tədbirlərin təşkili və bu kimi işlərin həyata keçirilməsilə



**Sərpuş**
Azərbaycan, Mis, 19-cu əsr

yaddaqalan olmuşdur. Bu il ərzində işçilərin bu tipli treninqlərə olan tələbatını, həmçinin fərdi karyera planlarını və bankdaxili gizli sorğunun nəticələrini əsas tutaraq müştəri xidmətləri və digər struktur rəhbərləri üçün "Biznesdə Liderlik", əməkdaşlar üçün isə işin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə "Müştəri Xidmətlərində satış və davranış" mövzusunda GRBS tərəfindən təşkil olunmuş korporativ təlimlər keçirilmiş, yüksək nəticələr əldə edilmişdir.

Bankımız artıq 2013-cü ilin sentyabr ayından etibarən ADA Universiteti ilə əməkdaşlığa başlamış və orada təşkil olunan treninqlərdə Bank əməkdaşlarının iştirakını təmin etmişdir.

Treninqlərlə yanaşı əməkdaşlarımız beynəlxalq səviyyəli tədbilərdə də Bankı layiqincə təmsil etmişlər. Bunlara, Bank əməkdaşlarının "İkinci İllik Uşaq və Gənclər Maliyyə Beynəlxalq Zirvə Toplantısı və Mükafatlandırma mərasimi" (İstanbul, Türkiyə), AYİB-in İllik Toplantısı" (İstanbul, Türkiyə), "Deutsche Bank" AG bankının təşkilatçılığı ilə keçirilmiş praktik seminar (Moskva, Rusiya), "BCP-nin 50 illiyi münasibətilə keçirilmiş mərasim" (Cenevrə, İsveçrə), FT və IFC təşkilatçılığı ilə keçirilmiş "Davamlı Maliyyə və Təltif 2013" konfransı (London, İngiltərə), "Bank fəaliyyəti sahəsində risklərin idarə edilməsi" (Montabaur, Almaniya), "MasterCard"ın konfransı (Roma, İtaliya) və s. tədbirlərdə iştirakını misal gətirmək olar.

Bankda çalışan işçilərin sosial həyatda aktiv iştirakı Bank üçün vacib ünsürlərdən biridir. Belə ki, ötən ildə korporativ sosial layihə çərçivəsində Bank tərəfindən İnsan Resursları sahəsinə aid bir çox işlər həyata keçirilmişdir.

Bank tərəfindən insan kapitalına qoyulan investisiyalar Bankın dayanıqlığının güclənməsinə, bank xidmətlərinin keyfiyyətinin artmasına və nəhayət, komandadaxili münasibətlərin yüksək səviyyədə qorunub saxlanmasına xidmət edir.



**Satıl**
Azərbaycan, Mis, 19-cu əsr

# BEYNƏLXALQ ƏMƏKDAŞLIQ



Meyvə qabı
Azərbaycan, Mis, 19-cu əsr

Davamlı inkişaf edən, dayanıqlı iqtisadiyyata malik olan Azərbaycanın qazandığı uğurlar və mövcud əlverişli biznes mühiti, iri xarici şirkət və korporasiyaları respublikamıza sərmayə yatırımında maraqlı edir. Dinamik inkişafa görə Cənubi Qafqaz iqtisadiyyatının 80%-nə sahiblik edən ölkəmiz dünyanın nüfuzlu iqtisadi-maliyyə qurumlarının reytinq cədvəllərində ildən-ilə sürətlə irəliləyərək öz mövqeyini möhkəmləndirməkdədir. Dünya İqtisadi Forumunun hazırladığı "Qlobal Rəqabətlilik 2013-2014" hesabatında qlobal rəqabətqabiliyyətlilik indeksinə görə Azərbaycanın 7 pillə irəliləməsi və 148 dövlət arasında 39-cu yerdə qərarlaşması bunun əyani sübutudur. Qlobal iqtisadiyyatın böhrandan sonrakı kövrək inkişaf dövrünü yaşadığı və yüksək rəqabət mühiti ilə səciyyələnən bir vaxtda Azərbaycanın dünyanın artıq 40 ən rəqabətqabiliyyətli ölkəsi sırasına daxil olması əlverişli iqtisadi mühitin mövcud olmasının bariz sübutudur. Məhz bu amil Azərbaycan banklarının, həmçinin TuranBankın müxtəlif beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq sahəsində gördüyü işlərə böyük təkan vermişdir.

Hesabat ilində TuranBank beynəlxalq əlaqələr və əməkdaşlıq sahəsində fəaliyyətini daha da genişləndirmiş və bir sıra uğurlara imza atmışdır. Fəaliyyəti ərzində Bank mikro, eləcə də Kiçik və Orta Sahibkarlığın (KOS) maliyyələşdirilməsi proqramları üzrə beynəlxalq kredit xəttlərinin cəlb edilməsi, İslam bankçılığının ölkə ərazisində təşəkkül tapması, xarici banklarla müxbir əlaqələrin yaradılması, beynəlxalq və banklararası ödəniş sistemləri, təcili pul köçürmə sistemləri çərçivəsində əməkdaşlıq əlaqələrini uğurla inkişaf etdirmişdir. Birmənalı şəkildə qeyd edilməlidir ki, beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığın qurulması həm xarici, həm də yerli

tərəfdaşlarla münasibətlərdə etibarlı tərəfdaş imici qazanmasında böyük rol oynayır. Məhz etibarlı tərəfdaş imici hesabat ilində bizə 2012-2015-ci illər üzrə Strateji Planımızın əsas hədəflərindən birini - Banka xarici investisiya kapitalının cəlbini icra etməyə  imkan vermişdir. Belə ki, TuranBankın səhmlərinin 3028 ədədini əldə edən ABŞ-da idarə olunan ShoreCap II Ltd. Fondu 7,45% payla Bankın səhmdarları sırasına qatılmışdır. "ShoreCap II Ltd." beynəlxalq özəl kapital fondudur. Fond inkişaf etməkdə olan və keçid iqtisadiyyatlı ölkələrdə biznes bazarlarına (müştərilərinə) xidmət göstərən kiçik miqyaslı banklara və tənzimlənən mikromaliyyə institutlarına investisiya qoyuluşunda maraqlıdır. "ShoreCap II Ltd." Asiya və Afrikada maliyyə institutlarının inkişafını dəstəkləmək məqsədilə 80 milyon ABŞ dollları məbləğində kapital formalaşdırıb. Fondun fəaliyyətinin başlıca məqsədi inkişafda olan və keçid iqtisadiyyatı olan ölkələrdə mikro və kiçik miqyaslı müəssisələrə xidmət göstərən maliyyə institutlarının inkişafını artırmaq üçün  investisiya qoyuluşları vasitəsilə kapitaldan sosial məsuliyyət çərçivəsində istifadəni təmin etməkdir.

Hesabat ilində beynəlxalq əlaqələrin inkişafı strategiyası çərçivəsində Bank beynəlxalq əməkdaşlıq üzrə mövcüd layihələri müvəffəqiyyətlə davam etdirmiş, yeni əməkdaşlıq layihələrinin reallaşdırılması istiqamətində uğurlu nəticələr əldə etmişdir. Belə ki, Bankımız dünyanın aparıcı banklarından olan Societe Generale ilə əlavə 1 mln. ABŞ dolları məbləğində vəsaitin cəlb edilməsi barəsində müqavilə imzalamışdır. Cəlb olunmuş vəsait mikro və KOS-un kreditləşməsi istiqamətində istifadə edilmişdir.

Bank 2013-cü ildə müxtəlif beynəlxalq konfranslarda fəal iştirakı ilə seçilmişdir. Belə ki, Bankın nümayəndə heyəti hər il olduğu kimi, 2013-cü ildə də Avropa Yenidənqurma və İnkişaf Bankının (EBRD) İstanbul, MFC-nin Çernoqoriyanın Budva, İslam İnkişaf Bankının (IDB) Düşənbə, EFSE-nin Bosniya və Hersoqoviniyanın Sarayevo, MDB Bank Forumunun Rusiyanın Moskva şəhərlərində keçirilən illik toplantılarında iştirak etmişdir. Qeyd olunan tədbirlərlə yanaşı Bankın nümayəndələri hesabat ilində BMK-nın İstanbulda İqlim İnvestisiyaları və Dubayda KOS mövzuları üzrə keçirilən toplantılarında da iştirak etmişlər. Bundan əlavə, Bankın nümayəndəsi islam bankçılığı çərçivəsində Bəhreyndə keçirilən 20-ci Beynəlxalq İslam Bankçılığı Konfransında TuranBankı təmsil etmişdir.

## KOS və Ticarətin maliyələşməsi

2013-cü ildə Bankın bir sıra beynəlxalq qurumlarla apardığı uğurlu danışıqların yekunu olaraq imzalanmış memorandumlar növbəti ildə iri layihələr çərçivəsində məhsuldar əməkdaşlığa yol açmışdır. Bu layihələrdən ilk növbədə Bank ilə WBC/OPIC təşkilatı arasında KOS maliyyələşdirilməsi istiqamətində 7 il müddətinə 7 mln. ABŞ dolları məbləğində vəsaitin cəlb olunması üzrə əldə olunan razılaşmanı xüsusi qeyd etmək lazımdır. 2013-cü ildə digər əlamətdar hadisələrdən biri də TuranBank və İslam İnkişaf Bankının törəmə təşkilatı olan Özəl sektorun inkişafı üzrə İslam Korporasiyası (ICD) arasında KOS-un maliyyələşdirilməsi istiqamətində 5 il müddətinə 5 mln. ABŞ dolları məbləğində vəsaitin cəlb edilməsi üzrə əldə olunan razılaşma olmuşdur

Hesabat ilində Bankın müştərək layihələr həyata keçirəcəyi tərəfdaşları sırasına ECO Bank Ticarət və İnkişaf Bankı da qatılmışdır. Artıq bu qurumla KOS-un maliyyələşdirilməsi istiqamətində 3 mln. ABŞ dolları məbləğində vəsaitin cəlb olunması üzrə ilkin razılıq əldə olunmuşdur. Bank, hesabat ilində Kiçik və Orta Sahibkarlıq (KOS) Bankçılığı layihəsi üzrə BMK, "Azərbaycanda Rəqabətqabiliyyətliliyi və Ticarətin inkişafı" layihəsi üzrə isə USAID (ABŞ Beynəlxalq İnkişaf Agentliyi) ilə əməkdaşlığını davam etdirmişdir.

Ticarətin maliyyələşdirilməsi bank məhsulları sırasında önəmli sahə hesab olunur. Bank, bu sahə üzrə KOS-ın dətəklənməsini özünün vacib istiqamətlərindən biri kimi qəbul etmişdir. Hesabat ilində Bank, beynəlxalq əməkdaşlıq çərçivəsində mövcud kredit xətləri vasitəsilə bu sahə üzrə maliyyələşdirməni davam etdirmiş, əlavə resurs imkanları üzrə məhsuldar danışıqlar aparmışdır. Belə ki, 2013-cü il ərzində Bank beynəlxalq əməkdaşlığı çərçivəsində ticarətin maliyyələşdirilməsi üzrə proqramlara da geniş əhəmiyyət vermişdir. Bu istiqamətdə, Bank BMK ilə Ticarətin Maliyyələşdirilməsi məqsədilə maliyyə resursunun cəlbi istiqamətində apardığı uğurlu danışıqların yekunu kimi texniki dəstək layihəsi üzrə müqavilə imzalamışdır. Hesabat ilində Bank ticarətin maliyyələşdirilməsi istiqamətində həmçinin Qara Dəniz Ticarət və İnkişaf Bankı ilə mövcud əməkdaşlığını daha da genişləndirmişdir.

## İslam Bankçılığı

Ənənəvi bankçılığa paralel olaraq, islam bankçılığının respublikamızın maliyyə sektorunda tətbiqi üçün fəal təşviqat aparan TuranBank, İslam Maliyyələşdirilməsi istiqamətində Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası (ICD, İslam İnkişaf Bankı Qrupu) və Ticarətin Maliyyələşdirilməsi üzrə Beynəlxalq İslam Korporasiyası (ITFC, İslam İnkişaf Bankı Qrupu) ilə fəal əməkdaşlıq edir. Qeyd olunan beynəlxalq maliyyə institutlarının maliyyə xəttləri çərçivəsində Bank İslam Bank Məhsulları olan Murabaha (Təkrar Satış), Wakala, iki mərhələli Murabaha və İcarəni həyata keçirir.

Bankın ümumilikdə IDB-dən islam maliyyələşməsi istiqamətində əldə etdiyi vəsaitin ümumi həcmi 13,8 mln. ABŞ dolları məbləğindədir.

Bank, 2012-2015-ci illər üzrə Strateji Planın əsas hədəflərindən biri olan Kiçik və Orta Sahibkarlığın maliyyələşdirilməsi ilə yanaşı 2015-ci ilə qədər pərakəndə islam bankçılığı məhsullarının bazara geniş çeşiddə təqdim etməyə imkan verəcək İslam Bankçılığı pəncərəsinin açılması istiqamətində də işlərini davam etdirməkdədir.



Çömcə
Azərbaycan, Mis, 19-cu əsr

# XƏZİNƏDARLIQ FƏALİYYƏTİ

Xəzinədarlıq fəaliyyəti Bankda əsasən iki istiqaməti əhatə edir. Bu fəaliyyət istiqamətlərindən birincisi Akitv və Passivlərin idarə edilməsidir ki, burada da Bankın balans maddələrinin tərkibi, o cümlədən akitvlərin, öhdəliklərin və kapitalın keyfiyyəti, normativlərə uyğunluğu, aktivlərin gəlirliliyi, Bankın likvidlik vəziyyəti idarə olunur.

İkinci istiqamət birja fəaliyyətidir. Burada Bankın maliyyə bazarlarında olan əməliyyatlarının Bankın maraqları çərçivəsində həyata keçirilməsi və mənfəətliliyinin artırılması hədəflənir, eyni zamanda icrasına nəzarət həyata keçirilir. Bu istiqamətdə Bankın Xəzinədarlıq sahəsi həmin əməliyyatların nəticələrinə bağlı olaraq gəlir mərkəzi fonunda çıxış etməkdədir. Birja fəaliyyəti yerli və xarici maliyyə bazarlarını əhatə etməklə və eyni zamanda çoxşaxəli bir fəaliyyət istiqaməti olmaqla bərabər bankın bazar risklərinin tənzimləməsi üzrə də önəm kəsb edir.

Bankın likvidliyinin idarə edilməsi sahəsində əsas prioritet istiqamət aktivlərin daha səmərəli idarə edilməsi, likvidlik uçurumlarının təhlil edilməsi və likvid aktivlərin müəyyən edilmiş minimal səviyyəsinin sabit saxlanılmasıdır. Likvidlik risklərinin idarə edilməsində gələcək dövrlər üzrə proqnozlaşdırma və buna müvafiq planlaşdırma mərhələləri də mühüm təsirə malik olduğundan Bankın Xəzinədarlıq istiqaməti bu sahədə də müəyyən təhlillər apararaq nəticələri APİK-in müzakirəsinə təqdim edir. Xəzinədarlıq fəaliyyətində risklərin, o cümlədən bazar risklərinin idarə edilməsi prioritet isitiqamət sayılır. Bu qrupa daxil olan risk növləri mütəmadi olaraq cari nəzarətdə saxlanılır və idarə edilir. Bu risk qrupları üzrə cari nəzarətin aparılması Bankın bu istiqamətdə risklərin cari əsasda idarə edilməsinə və maliyyə zərərlərinin minimuma endirilməsinə və eyni zamanda aktiv və passivlərin idarə edilməsi üzrə səmərəliliyin artmasına səbəb olur. Bankın Xəzinədarlıq sahəsi bank fəaliyyəti zamanı qarşıya çıxan risklərin, bazar və likvidlik risklərinin Banka təsirini minimallaşdırması, hər bir risk maddəsi üzrə təhlillərin aparılması və nəticələrinin APİK-ə təqdim edilməsi baxımından mühüm funksional öhdəlik daşımaqdadır.

Bankda risklərin optimal idarəedilməsi və eyni zamanda mənfəətliliyin artması fonunda banka qoyulan müddətli əmanət portfelində də sürətli artım müşahidə olunmuşdur. Bankın öz öhdəliklərini vaxtında və tam ödəmək iqtidarında olması artıq illərdir ki, müştərilərin banka olan güvəninin durmadan artmasında özünü biruzə verir. Bunun bariz nümunəsidir ki, bankın faizli öhdəliklərinin tərkibində ən böyük passiv maddəsi olan fiziki şəxslərin müddətli əmanət portfeli ilin əvvəlindən 23,5% artaraq ilin sonuna 61,3 mln. manat olmuşdur. Əmanət portfeli üzrə orta cəlbedilmə 12,5% olmaqla, Bankın əmanət portfelinin 41%-i Əmanətlərin Sığortalanması Fondunda sığortalanmışdır.

Bankın fəaliyyətindəki əsas məqsədlərdən biri də passivlərin tərkibində yer alan daha sabit və keyfiyyətli öhdəlik maddəsi olan əmanət portfelinin həcmini və bazar payını qoruyaraq daha da artırmaqdan ibarətdir.

# AUDİTOR RƏYİ

KPMG

**KPMG Azerbaijan Limited**
Port Baku, Cənub qülləsi, 12ci mərtəbə
153, Neftçilər Prospekti
AZ1010, Bakı, Azərbaycan

Telefon +994 (12) 404 8910/11
Faks +994 (12) 404 8914
İnternet www.kpmg.az

**Müstəqil Auditorların Hesabatı**

"TuranBank" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasına:

Biz əlavə olunan TuranBank Açıq Səhmdar Cəmiyyətinin və onun törəmə müəssisələrinin ("Qrup") 31 dekabr 2013-cü il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatmış maliyyə ili üzrə mənfəət və ya zərər və sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidasiya edilmiş hesabatlardan, eləcə də əsas mühasibat uçotu siyasətlərinin xülasəsi və sair izahedici məlumatları özündə ehtiva edən qeydlərdən ibarət olan konsolidasiya edilmiş maliyyə hesabatlarının auditini apardıq.

*Konsolidasiya Edilmiş Maliyyə Hesabatları üzrə Rəhbərliyin Məsuliyyəti*

Rəhbərlik hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdimatına, habelə saxtakarlıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlərin müşahidə olunmadığı maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün rəhbərliyin qənaətinə əsasən zəruri sayılan daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

*Auditorların Məsuliyyəti*

Bizim məsuliyyətimiz apardığımız audit əsasında həmin konsolidasiya edilmiş maliyyə hesabatları üzrə rəy bildirməkdir. Biz audit yoxlamasını Beynəlxalq Audit Standartlarına uyğun olaraq aparmışıq. Həmin standartlar bizdən etik tələblərə riayət etməyimizi eləcə də maliyyə hesabatlarında əhəmiyyətli təhriflərin olmadığına kifayət qədər əminliyin əldə edilməsi üçün auditi planlaşdırmağımızı və həyata keçirməyimizi tələb edir.

Audit zamanı maliyyə hesabatlarındakı məbləğ və açıqlamalara dair audit sübutlarının əldə olunması üzrə prosedurlar yerinə yetirilir. Prosedurlar auditorun mühakiməsi, habelə maliyyə hesabatlarında saxtakarlıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm səhv risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən, auditor şəraitə uyğun olaraq audit prosedurlarının planlaşdırılması məqsədilə müəssisənin daxili nəzarət sistemini, həmin sistemin effektivliyi barədə rəy bildirmək üçün deyil, müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi ilə əlaqədar olaraq nəzərdən keçirir. Auditə, həmçinin rəhbərlik tərəfindən tətbiq edilən mühasibat uçotu qaydalarının müvafiqliyinin və irəli sürülmüş mühasibat təxminlərinin əsaslı olduğunun qiymətləndirilməsi, habelə maliyyə hesabatlarının ümumi təqdimatının təhlili daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu audit rəyimizi bildirmək üçün yetərli və müvafiq əsası təmin edir.

*Rəy*

Bizim rəyimizə görə, konsolidasiya edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Qrupun 31 dekabr 2013-cü il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatmış maliyyə ili üzrə onun maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq düzgün əks etdirir.

KPMG Azerbaijan Limited

24 Aprel 2014-cü il

Bakı, Azərbaycan Respublikası

**TuranBank ASC**
*31 dekabr 2013-cü il tarixində tamamlanan il üzrə Konsolidasiya Edilmiş Mənfəət və ya Zərər və Sair Məcmu Gəlir haqqında Hesabat*

| | Qeydlər | 2013 AZN'000 | 2012 AZN'000 |
|---|---|---|---|
| Faiz gəlirləri | 4 | 23,345 | 19,052 |
| Faiz xərcləri | 4 | (11,726) | (9,728) |
| **Xalis faiz gəlirləri** | | **11,619** | **9,324** |
| Haqq və komissiya gəlirləri | 5 | 3,560 | 3,300 |
| Haqq və komissiya xərcləri | 6 | (640) | (510) |
| **Xalis haqq və komissiya gəlirləri** | | **2,920** | **2,790** |
| Xarici valyuta ilə əməliyyatlardan yaranan xalis gəlirlər | | 915 | 906 |
| Xarici valyuta üzrə məzənnə fərqindən yaranan xalis gəlirlər | | 44 | 18 |
| Sair əməliyyat gəlirləri | | 36 | 21 |
| **Əməliyyat gəlirləri** | | **15,534** | **13,059** |
| Dəyərsizləşmə üzrə zərərlər | | (1,820) | (1,559) |
| İşçi heyəti üzrə xərclər | 7 | (5,162) | (3,942) |
| Sair ümumi inzibati xərclər | 8 | (3,771) | (3,549) |
| **Vergidən əvvəlki mənfəət** | | **4,781** | **4,013** |
| Mənfəət vergisi xərci | 9 | (967) | (827) |
| **İl üzrə mənfəət** | | **3,814** | **3,186** |
| **Mənfəət vergisindən sonra sair məcmu gəlir** | | | |
| *Mənfəət və ya zərərdə yenidən təsnif olunan və ya oluna bilən ələmlər:* | | | |
| Satıla bilən maliyyə aktivləri üzrə yenidən qiymətləndirmə ehtiyatı: | | | |
| - Ədalətli dəyərdə xalis dəyişiklik | | 58 | 20 |
| *Mənfəət və ya zərərdə yenidən təsnif olunan və ya oluna bilən cəmi ələmlər* | | 58 | 20 |
| *Mənfəət və ya zərərdə yenidən təsnif olunmayacaq ələmlər* | | | |
| Binaların yenidən qiymətləndirilməsi | | 640 | - |
| *Mənfəət və ya zərərdə yenidən təsnif olunmayacaq cəmi ələmlər* | | 640 | - |
| **Mənfəət vergisindən sonra il üzrə cəmi sair məcmu gəlir** | | **698** | **20** |
| **İl üzrə cəmi məcmu gəlir** | | **4,512** | **3,206** |
| **Səhm üzrə mənfəət** | | | |
| Səhm üzrə əsas mənfəət (AZN ilə) | 21 | 112 | 138 |

Hazırkı hesabatın 4-69-cu səhifələrində təqdim edilən konsolidasiya edilmiş maliyyə hesabatları 24 aprel 2014-cü il tarixində Qrupun rəhbərliyi tərəfindən təsdiqlənərək aşağıdakılar tərəfindən imzalanmışdır:

Cənab Nazim Sadıqov
İdarə Heyətinin Sədri

Cənab Əlizaman İbrahimov
Maliyyə Menecmenti Departamentinin Direktoru

Konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edən Qeydlərlə birgə oxunur.

| | Qeydlər | 2013 AZN'000 | 2012 AZN'000 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 10 | 40,551 | 36,305 |
| Satıla bilən maliyyə aktivləri | 11 | 1,158 | 1,649 |
| Banklara verilmiş kreditlər | 12 | 12,588 | 7,215 |
| Müştərilərə verilmiş kreditlər | 13 | 177,608 | 161,279 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 14 | 11,686 | 9,611 |
| Sair aktivlər | 15 | 956 | 1,014 |
| **Cəmi aktivlər** | | **244,537** | **217,073** |
| **ÖHDƏLİKLƏR** | | | |
| Bank depozitləri və borcalmaları | 16 | 27,138 | 25,531 |
| Müştərilərin cari hesabları və depozitləri | 17 | 108,167 | 102,760 |
| Sair borc öhdəlikləri | 18 | 59,962 | 56,199 |
| Cari vergi öhdəliyi | | 409 | 329 |
| Təxirə salınmış vergi öhdəliyi | 9 | 236 | 32 |
| Sair öhdəliklər | 19 | 318 | 352 |
| **Cəmi öhdəliklər** | | **196,230** | **185,203** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 20 | 44,092 | 30,001 |
| Səhm mükafatı | | 724 | - |
| Binalar üzrə yenidən qiymətləndirmə ehtiyatı | | 1,327 | 667 |
| Satıla bilən maliyyə aktivləri üzrə yenidən qiymətləndirmə ehtiyatı | | 38 | 20 |
| Bölüşdürülməmiş mənfəət | | 1,996 | 1,182 |
| **Cəmi kapital** | | **48,307** | **31,870** |
| **Cəmi öhdəliklər və kapital** | | **244,537** | **217,073** |

Cənab Nazim Sadıqov
İdarə Heyətinin Sədri

Cənab Əlizaman İbrahimov
Maliyyə Menecmenti Departamentinin Direktoru





| | Qeydlər | 2013 AZN'000 | 2012 AZN'000 |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Alınmış faizlər | | 22,998 | 18,456 |
| Ödənilmiş faizlər | | (11,293) | (9,320) |
| Alınmış haqq və komissiyalar | | 3,560 | 3,300 |
| Ödənilmiş haqq və komissiyalar | | (640) | (510) |
| Xarici valyutada əməliyyatlardan gəlirlər | | 935 | 800 |
| Alınmış dividendlər | | - | 24 |
| Alınmış sair gəlirlər | | 7 | 7 |
| Ödənilmiş sair əməliyyat və inzibati xərclər | | (8,141) | (6,786) |
| **Əməliyyat aktivlərində (artım) / azalma** | | | |
| Banklara verilmiş kreditlər | | (3,151) | (3,272) |
| Müştərilərə verilmiş kreditlər | | (17,822) | (45,273) |
| Sair aktivlər | | 106 | (321) |
| **Əməliyyat öhdəliklərində artım/(azalma)** | | | |
| Bank depozitləri və borcalmaları | | 1,469 | 14,193 |
| Müştərilərin cari hesabları və depozitləri | | 5,060 | 15,813 |
| Sair öhdəliklər | | (54) | 69 |
| **Mənfəət vergisinin ödənilməsindən əvvəl əməliyyat fəaliyyətlərində istifadə olunan pul vəsaitləri** | | **(8,948)** | **(8,727)** |
| Ödənilmiş mənfəət vergisi | | (857) | (635) |
| **Əməliyyatlarda istifadə olunan pul vəsaitləri** | | **(9,805)** | **(9,362)** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Satıla bilən maliyyə aktivlərinin satışı və ödənilməsi | | 539 | 6,753 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | | (2,092) | (2,007) |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin satılması | | 18 | 2 |
| **İnvestisiya fəaliyyətindən daxil olan /(istifadə olunan) pul vəsaitləri** | | **(1,535)** | **4,748** |
| **MALİYYƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | | | |
| Sair borc öhdəliklərinin cəlb edilməsi | | 27,991 | 20,126 |
| Sair borc öhdəliklərinin ödənişi | | (24,166) | (11,678) |
| Səhmlərin emissiyasından əldə edilən vəsaitlər | | 11,725 | 6,197 |
| Ödənilmiş dividendlər | | - | (1,279) |
| **Maliyyə fəaliyyətindən əldə edilən pul vəsaitləri** | | **15,540** | **13,374** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım** | | **4,202** | **8,760** |
| Məzənnə dəyişikliklərinin pul vəsaitlərinə və onların ekvivalentlərinə təsiri | | 44 | 18 |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | | 36,305 | 27,527 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 10 | **40,551** | **36,305** |

Cənab Nazim Sadıqov
İdarə Heyətinin Sədri

Cənab Əlizaman İbrahimov
Maliyyə Menecmenti Departamentinin Direktoru

| AZN'000 | Nizamnamə kapitalı | Səhm mükafatı | Binalar üzrə yenidən qiymətləndirmə ehtiyatı | Satıla bilən maliyyə aktivlərinin yenidən qiymətləndirmə ehtiyatı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2013-cü il tarixinə qalıq** | 30,001 | - | 667 | 20 | 1,182 | 31,870 |
| **Cəmi məcmu gəlir** | | | | | | |
| İl üzrə mənfəət | - | - | - | - | 3,814 | 3,814 |
| **Sair məcmu gəlir** | | | | | | |
| _Mənfəət və ya zərərdə yenidən təsnif olunan və ya oluna bilən alətlər:_ | | | | | | |
| Mənfəət və ya zərərə transfer olunan satıla bilən maliyyə aktivlərinin ədalətli dəyərində xalis dəyişiklik, təxirə salınmış vergi çıxılmaqla | - | - | - | 38 | - | 38 |
| _Mənfəət və ya zərərdə yenidən təsnif olunan və ya oluna bilən cəmi alətlər_ | - | - | - | _38_ | - | _38_ |
| _Mənfəət və ya zərərdə yenidən təsnif olunmayacaq alətlər:_ | | | | | | |
| Əmlak və avadanlıqların yenidən qiymətləndirilməsi, təxirə salınmış vergi çıxılmaqla | - | - | 660 | - | - | 660 |
| _Mənfəət və ya zərərdə yenidən təsnif olunmayacaq cəmi alətlər_ | - | - | _660_ | - | - | _660_ |
| Cəmi sair məcmu gəlir | - | - | 660 | 38 | - | 698 |
| **Cəmi il üzrə məcmu gəlir** | **-** | **-** | **660** | **38** | **3,814** | **4,512** |
| **Birbaşa kapitalda qeyd edilmiş səhmdarlarla əməliyyatlar** | | | | | | |
| Buraxılmış səhmlər | 11,001 | 724 | - | - | - | 11,725 |
| Nizamnamə kapitalının gəlirlərin transferi ilə artırılması | 3,000 | - | - | - | (3,000) | - |
| **Səhmdarlarla cəmi əməliyyatlar** | **14,001** | **724** | **-** | **-** | **(3,000)** | **11,725** |
| **31 dekabr 2013-cü il tarixinə qalıq** | **44,002** | **724** | **1,327** | **58** | **1,996** | **48,107** |

Cənab Nazim Sadıqov
İdarə Heyətinin Sədri

Cənab Əlizaman İbrahimov
Maliyyə Menecmenti Departamentinin Direktoru

Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsini təşkil edən Qeydlərlə birgə oxunur.

TuranBank, Şəfəq Qurbanovaya Azərbaycanın qədim misgərlik nümunələrinin toplandığı kolleksiyasına daxil olan dəyərli sənət əsərlərinin şəkilləri ilə bu nəşrin zənginləşdirilməsinə şərait yaratdığı üçün öz dərin minnətdarlığını bildirir, bu qiymətli xəzinəni qoruyub saxladığı üçün öz ehtiram və hörmətini çatdırır.



**Şəfəq Qurbanova,**
Kolleksioner



TuranBank

# İLLİK HESABAT
# 2013

shamans
creative bureau